Bu bir xalq qəzetidi
ƏDALƏT

## Ali Məhkəmədə yeni İşçi Qrup yaradıldı



**Azərbaycan Respublikası Ali Məhkəməsi fəaliyyətinin səmərəliliyinin artırılması, Ali Məhkəmədə informasiya texnologiyalarının daha geniş tətbiq edilməsi, bu sahədə strateji inkişafın təmin olunması, "Elektron Məhkəmə" İnformasiya Sisteminin tətbiqinin təkmilləşdirilməsi, vətəndaşların məhkəməyə müraciət imkanlarının genişləndirilməsi və məmnunluğunun yüksəldilməsi, şəffaflıq və operativliyin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin 2020-ci il 14 sentyabr tarixli əmri ilə Ali Məhkəmənin kollegiya sədrləri və struktur bölmə rəhbərlərindən ibarət işçi qrupu yaradılıb.**

Bu barədə Adalet.az-a Ali Məhkəmədən məlumat verilib. Məlumatda bildirilir ki, işçi qrupunun işinə rəhbərlik Ali Məhkəmə sədrinin müavini Çingiz Əsgərova həvalə edilib.

## "Əsgərdən generaladək hər bir hərbi qulluqçumuz torpaqlarımızın azad edilməsinə hazırdır"



**Sentyabrın 16-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində birlik, birləşmə, əlahiddə hərbi hissə komandirlərinin və xüsusi təyinatlı hərbi təhsil müəssisələri rəslərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavinləri ilə görüşüb.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Müdafiə naziri cari ilin ötən dövründə döyüş hazırlığı və mənəvi-psixoloji təminat sahəsində fəaliyyətlərin təhlilini aparıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ordu quruculuğuna xüsusi diqqət göstərdiyini qeyd edən Müdafiə naziri Silahlı Qüvvələrin Ali Baş Komandanının ordumuz qarşısında qoyduğu tapşırıqları görüş iştirakçılarına çatdırıb. Cəbhədəki son vəziyyətə toxunan Müdafiə naziri şəxsi heyətin döyüş hazırlığını və ayıq-sayıqlığını yüksək səviyyədə saxlamağı, eləcə də Ermənistan silahlı qüvvələrinin müxtəlif istiqamətlərdə törədə biləcəyi genişmiqyaslı təxribatların qarşısının dərhal və qətiyyətlə alınmasını əmr edib. Azərbaycan xalqının Orduya inamının güclü olduğunu xatırladan nazir torpaqlarımızın işğaldan azad edilməsi naminə müqəddəs vəzifənin yerinə yetirilməsinə əsgərdən generaladək hər bir hərbi qulluqçunun hazır olduğunu bildirib. Orduda həyata keçirilən döyüş hazırlığı tədbirləri, bölmələrin təminat və təchizatı, eləcə də döyüş qabiliyyətinin artırılması məsələlərini diqqətə çatdıran Müdafiə naziri həmçinin tərbiyəvi işin planlı şəkildə aparılması, qoşunların döyüş tapşırıqlarını yerinə yetirməyə daim hazır olmaları üçün ideoloji iş və mənəvi-psixoloji təminatın daha da gücləndirilməsi ilə bağlı vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

## DİN azarkeşlərə müraciət etdi

### "Neftçi" - "Qalatasaray" oyununa görə



*Daxili İşlər Nazirliyi, AFFA və "Neftçi" klubu UEFA Avropa Liqasının II təsnifat mərhələsində Türkiyə "Qalatasaray" ilə oyun öncəsi birgə açıqlama yayıb.*

*Adalet.az xəbər verir ki, bəyanatda matçın UEFA İcraiyyə Komitəsinin müvafiq qərarına uyğun olaraq, azarkeşsiz keçiriləcəyi xatırladılıb.*

*Hər iki komandanın Azərbaycanda çoxlu sayda azarkeşinin olması nəzərə alınaraq, bir daha bildirilib ki, COVİD-19 pandemiyası ilə əlaqədar Nazirlər Kabineti yanında Operativ Qərargahın tətbiq etdiyi qaydalara riayət olunması vacibdir. "Qalatasaray" komandasının Bakıya gəlişi zamanı hava limanında, komandanın qalacağı otelin qarşısında, məşq edəcəyi və oyunun keçiriləcəyi stadionun ətrafında, eləcə də digər müvafiq məkanlarda azarkeşlərin kütləvi toplaşması yolverilməzdir. DİN, AFFA və "Neftçi" koronavirusa yoluxma hallarının artım riskini nəzərə alaraq, azarkeşləri Nazirlər Kabineti yanında Operativ Qərargahın tətbiq etdiyi qaydalara riayət etməyə çağırır. Azarkeşlər sevimli komandalarına çatdırmaq istədikləri mesajları videoya çəkərək CBC Sport televiziya kanalına göndərə bilər. Həmin videomesajlar CBC Sport-da, həmçinin oyun günü Bakı Olimpiya Stadionunun monitorlarında nümayiş etdiriləcək.*

*Qeyd edək ki, sentyabrın 17-də keçiriləcək görüş saat 20:00-da başlanacaq.*

## Ağcabədidə yeni bağça istifadəyə verildi



**Yeni tədris ilinin başlamasıyla əlaqədar Ağcabədi rayonunda 100 yerlik yeni uşaq bağçasının açılışı olub. Açılışda Ağcabədi rayonunun İcra Hakimiyyətinin başçısı Rafiq Hüseynov və millət vəkili Aqil Abbas iştirak ediblər.**

Açılışın rəsmi hissəsində çıxış edən Rayon İcra Hakimiyyətinin başçısı yeni bağça ilə bağlı məlumat verərək burada çalışacaq hər kəsə uğurlar diləyib. Həmçinin açılış zamanı millət vəkili Aqil Abbas da müəllimlərlə söhbət edib və yeni tədris ili ilə bağlı uğurlar arzu edib.

Onu da qeyd edək ki, Ağcabədidə açılan bu bağça Heydər Əliyev Fondunun ağcabədililərə hədiyyəsidir.

## Koronavirusu tamamilə neytrallaşdıran preparat tapıldı



**ABŞ-ın Pittsburq Universitetinin alimləri SARS-CoV-2 virusunu tam şəkildə neytrallaşdıran ən kiçik bioloji molekulu tapıblar. Bu barədə "Cell" jurnalı yazıb.**

Bu molekul COVID-19-a qarşı Ab8 dərmanı yaratmaq üçün istifadə edilən tamölçülü anticisimdən 10 qat kiçik bir zülal birləşməsidir. Araşdırmanın nəticəsi göstərir ki, Ab8 siçanlarda SaRS-CoV-2-nin profilaktikası və müalicəsində effektli təsir edir. Molekulun kiçik ölçüsü toxumalara diffuziya qabiliyyətini artırır, bu da virusu daha yaxşı neytrallaşdırmağa və eyni zamanda dərmanın tənəffüs yolu ilə qəbuluna imkan verir. Preparat insan hüceyrələri ilə bağlanmır və bu da yan təsirləri minimuma endirməyə imkan yaradır.

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 127 (5787) 17 sentyabr 2020-ci il | Qiyməti 30 qəpik

## Rusiya ərazisində qalan daha 400 Azərbaycan vətəndaşı ölkəyə gətirildi




**Rusiyanın Dağıstan Respublikası ərazisində qalan daha 400 Azərbaycan vətəndaşının bu gün ölkəyə gətirilməsi təmin olunub.**

APA-nın verdiyi məlumata görə, soydaşlarımız avtobuslarla "Samur" sərhəd-keçid məntəqəsindən ölkəyə gətirilib. Onlar Fövqəladə Hallar Nazirliyi tərəfindən Rusiya Federasiyası ilə sərhəddə - Qusar rayonunun ərazisində yerləşən "Samur" sərhəd-keçid məntəqəsinin yaxınlığında yaradılmış qəbul-çeşidləmə məntəqəsinə yerləşdirilib, müvafiq tibbi yoxlamadan keçiriliblər.

Qəbul-çeşidləmə məntəqəsində eyni vaxtda 1200 nəfərin yerləşdirilməsi üçün şərait yaradılıb, sanitar-gigiyenik tələbləri tam təmin olunub, qidalanma, gigiyenik vasitələrlə təchizat və s. ilə bağlı bütün lazımi tədbirlər həyata keçirilib. Hər hansı şübhəli əlamət aşkar edilən şəxslərin daha dəqiq diaqnoz qoyulması üçün xüsusi ayrılmış müvafiq yerli xəstəxanaya təxliyyəsi nəzərdə tutulur.

# DTX əməliyyat keçirdi



**Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən güclü təsir edən maddələrin müntəzəm olaraq külli miqdarda Rusiya Federasiyasından gömrük sərhədindən gömrük nəzarətindən gizli keçirərək Azərbaycan Respublikasına gətirməkdə, satış məqsədi ilə qanunsuz olaraq əldə etməkdə, saxlamaqda və daşımaqda, eləcə də digər hüquqazidd əməlləri törətməkdə şübhəli bilinən Azərbaycan Respublikasının vətəndaşları - Əsədov Emil Kamran oğlu, Hüseynov Şahin Mirhüseyn oğlu, Babayev Asif Siyafəddin oğlu, Hüseynov Rəşad Şahin oğlu, Musayev Vasif Zülfüqar oğlu, Əliyev Emil Xandadaş oğlu və Namazov Zaur Namaz oğlunun qanunsuz əməllərinin qarşısı alınıb. Adalet.az DTX-nin saytına istinadən xəbər verir ki, cinayət başında ifşa olunmuş adları çəkilən şəxslərin idarə etdikləri avtomobillərə və yaşadıqları mənzillərə keçirilmiş baxış zamanı külli miqdarda müxtəlif növ güclü təsir edən maddələr və digər maddi sübutlar aşkar edilərək götürülüb.**

**Faktlarla bağlı Dövlət Təhlükəsizliyi Xidmətində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qaçaqmalçılıq) və 240.3.2-ci (külli miqdarda güclü təsir edən və ya zəhərli maddələrin qanunsuz dövriyyəsi) maddələri ilə cinayət işləri başlanılıb. Hazırda adları qeyd olunan şəxslərlə bağlı cinayət təqibi davam etdirilir.**

## Onlayn dərs və videokonfranslar internetin sürətinə necə təsir edir?



**COVID-19 pandemiyası fonunda bütün dünyada onlyan iş rejimi tətbiqi olunur. Bununla əlaqədar olaraq genişzolaqlı şəbəkənin yüklənməsində artım müşahidə olunur.**

Bu barədə Adalet.az-a Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən bildiriblər. Qeyd olunur ki, başlıca problem yüklənmənin paylaşdırılmasına uyğun olaraq qoşulma coğrafiyasının dəyişməsidir. Tədris müəssisələrinin bağlanması ilə əlaqədar ev şəraitində onlayn dərs və videokonfransların həcmi ümumi trafikin 70 faizini əhatə edir. Hamı eyni zamanda internetə qoşulmaq istəyəndə işdə çətinliklər yarana bilir. Bütün bunlar nəzərə alınmaqla şəbəkənin fasiləsiz və sürətli işini təmin etmək üçün operativ tədbirlər görülür. Bundan başqa, operator şəbəkəsinin tutumluluğu da yüklənmənin qarşısının alınması üçün genişləndirilir. İnternetin sürəti ilə bağlı bütün məsələlər və müraciətlər qeydə alınır və operativ tədbirlər görülür.

Məlumata əsasən, internet qiymətləri bazara uyğun tənzimlənir və istismar xərcləri ilə tarif cədvəlindən asılıdır.

## "Bakının azad edilməsi başla bədənin birləşməsi idi"

Bax:səh-3

## Bakı Metropoliteni stansiyalara nəzarəti gücləndirdi



**72 günlük fasilədən sonra yenidən fəaliyyətə başlayan Bakı Metropoliteninin stansiyalarında hələ ki, ciddi sıxlıq yaranmayıb.**

Bunu Bakı Metropoliteni Qapalı Səhmdar Cəmiyyətinin Mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib. Onun sözlərinə görə, hazırda stansiyalara nəzarət gücləndirilib: "Sentyabrın 14-də fəaliyyətə başlayandan 1 gün sonra ölkədə yeni tədris ili də başladı. Bu isə metroda sərnişin sayının artması deməkdir. Amma bir məsələ var ki, bu il tədrisə davamiyyət də ötən ilkilərdən fərqli qrafikdədir. Ona görə də stansiyalarda gözlənilən sıxlıq yoxdur. Hələ ki, stansiyalarda pik saatlarda da vəziyyət nəzarət olunan səviyyədədir. Stansiyalarda sərnişinlərin qaydalara əməl edib-etməməsinə nəzarət edən xüsusi işçilər var. Bu işçilər sərnişinlər arasında maarifləndirmə aparır, onları qaydalara əməl etməyə çağırır. Stansiya platformalarında sərnişinlərin tibbi maskadan istifadəsinə ciddi nəzarət olunur, sosial məsafənin qorunması tövsiyə edilir. Həmçinin, sərnişinlərə başa salınır ki, əgər qaydalara əməl olunmasa, ölkədə virusa yoluxma səviyyəsi artacaq və bu da metronun yenidən fəaliyyətini dayandırması ilə nəticələnəcək". B.Məmmədov əlavə edib ki, hazırda metrostansiyalarda qrafikə uyğun olaraq mütəmadi dezinfeksiya işləri davam etdirilir. Metroda Nazirlər Kabineti yanında Operativ Qərargahın tətbiq etdiyi qayda və tövsiyələrə ciddi əməl edilir.

### *ABŞ altıncı nəsil qırıcıları sınaqdan keçirdi*



**ABŞ-ın Hərbi Hava Qüvvələri (HHQ) "Generation Air Dominance" (NGAD) proqramı çərçivəsində X təyyarənin sınaqlarını keçirib.**

Sınaqlar tam məxfi şəraitdə baş tutub. "Tammiqyaslı nümayiş-uçuş nümunəsini yaradıb havaya qaldırmışıq. Bütün rekordları qırdıq. Növbəti nəsil təyyarələrin yaradılmasına heç vaxt olmadığı kimi hazırıq", - deyə ABŞ HHQ-nin ticarət üzrə direktoru Uill Roper bildirib.

### Oxucuların nəzərinə!

***Pandemiya ilə əlaqədar sərt karantin rejimi uzadıldığına görə qəzetimiz bu ay həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq. Buna görə oxucularımızdan üzr istəyirik.***

## ÜST-dən məktəblərin açılması ilə bağlı xəbərdarlıq



**Payız fəslində məktəblərin yenidən açılması, qrip mövsümünün başlaması və qış aylarında yaşlı insanlar arasında ölüm hallarının artması koronavirus baxımından mövcud epidemioloji vəziyyəti dəyişdirə bilər.**

Bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyindən deyiblər. Nümayəndəlikdən bildirildiyinə görə, mövcud sübutlar göstərir ki, məktəblərin yenidən açılması epidemioloji vəziyyətə təsir edən əsas amil deyil:

"Uşaqlar virusun ötürülməsində rol oynaya bilərlər, lakin bu, məktəbdən daha çox sosial yığıncaqlarda baş verir. Məktəblər yenidən açılandan sonra orada lazımi qabaqlayıcı tədbirlərin görülməsi vacibdir.

Növbəti qrip mövsümü sürətlə yaxınlaşır. İndi ölkələrin qriplə bağlı vəziyyəti izləməsi, hər iki virusu əhatə edəcək şəkildə gündəlik epidemiyaya nəzarət sistemini yenidən qurması və gücləndirməsi çox vacibdir. Bu il bu məsələ daha böyük əhəmiyyət daşıyır, çünki tibb müəssisələrini və hazırda COVID-19-la mübarizə aparan tibb işçilərini böyük yük altında qalmaqdan qorumalıyıq".

## KİŞİ MÜƏLLİMLƏR MƏKTƏBİ NİYƏ ATIB GETDİLƏR?

Bax:səh-4

### *Bu ölkə Britaniya kraliçasından imtina edir*

*Karib dənizində yerləşən və Millətlər Birliyinə daxil olan Barbados dövlət başçısı qismində Böyük Britaniya kraliçasından imtina etmək və respublikaya çevrilmək niyyətindədir.*

*Adalet.az-ın məlumatına görə, bu barədə ada dövlətin general qubernatoru Sandra Meysonun müraciətində deyilir.*

*Qeyd olunur ki, bu prosesin Barbadosun müstəqilliyinin 55 illiyi münasibətilə, 2021-ci ilin noyabrınadək başa çatdırılması planlaşdırılır. Müraciətdə Barbadosun müstəmləkə keçmişini geridə qoymaq istədiyi vurğulanıb.*

*Qeyd edək ki, Millətlər Birliyinə müxtəlif statuslu 54 ölkə daxildir. Böyük Britaniya da daxil olmaqla 16 ölkədə kraliça II Yelizaveta dövlət başçısı hesab olunur.*



## Koronavirusdan ilan vasitəsilə qorunan şəxs marağa səbəb oldu



**Britaniyalı kişi koronavirus pandemiyası zamanı karantin tədbirlərinə riayət etməyin orijinal üsulunu tapıb. Belə ki, o, maska əvəzinə boğazına ilan dolayıb gəzir.**

Bu barədə "Daily Mail" xəbər yayıb. Yayılan görüntülərdə üzünə maska taxmaq əvəzinə boğazına ilan dolamış kişinin avtobusda əyləşdiyi görünür. Avtobusun şoka düşmüş sərnişinləri isə qorxudan kişiyə yaxınlaşa bilməyiblər, beləliklə kişi eyni anda iki hədəfinə çatıb: ilan onun həm maskası olub, həm də sosial məsafəyə şərait yaradıb.

## 141 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 151 nəfər müalicə olunaraq sağalıb, 141 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Adalet.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 38 min 658 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 36 min 149 nəfər müalicə olunaraq sağalıb, 569 nəfər vəfat edib.

Aktiv xəstə sayı 1940 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 27 min 685 test aparılıb. Bugünkü test sayı isə 7656-dir.

### GÜNÜN LƏTİFƏSİ

Müəllim birinci sinifdə ilk dərsə başlayır:

**- Hə, uşaqlar, hamınız facebookda, instaqramda və digər sosial şəbəkələrdə yazışmalarınızı dayandırın və telefonlarınızı söndürün. Mən sizə bu gün A hərfini öyrədəcəm.**

# Prezident İlham Əliyev Azərbaycanın yəhudi icmasını təbrik edib



**Prezident İlham Əliyev Azərbaycanın yəhudi icmasını təbrik edib.**

Təbrikdə deyilir: ”Hörmətli həmvətənlər! Yəhudi xalqının yeni il bayramı - Roş-Ha-Şana münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Zəngin tarixi-mədəni irsə və çoxəsrlik tolerantlıq ənənələrinə malik Azərbaycanda tarix boyu yəhudilər digər xalqların və dinlərin nümayəndələri ilə sülh, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşamışlar. Azərbaycan etnik-dini dözümsüzlüyün, ksenofobiyanın və antisemitizmin mövcud olmadığı nadir məkanlardan biridir.

Cəmiyyətdə demokratik, hüquqi prinsiplərə əsaslanan birgəyaşayışa, yüksək dözümlülük mühitinin, multikultural dəyərlərin təşviqinə xüsusi əhəmiyyət verən Azərbaycan dövləti bütün etnik azlıqların, o cümlədən yəhudi icmasının mədəni-mənəvi dəyərlərinin qorunub-saxlanılmasına, dil və mədəniyyətinin inkişafına böyük diqqət və qayğıyla yanaşır.

Təqdirəlayiq haldır ki, ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında fəal iştirak edən yəhudi əsilli həmvətənlərimiz, harada yaşamalarından asılı olmayaraq, Azərbaycana sevgi və sədaqətlərini daim nümayiş etdirir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə əhəmiyyətli töhfələr verirlər.

Əziz dostlar!

Xeyirxahlığı, mənəvi dirçəlişi və yeni həyatı təcəssüm etdirən Roş-Ha-Şana münasibətilə bir daha hamınıza səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!”

# Pirallahıda yolların yenidən qurulmasına 1,4 milyon manat ayrılıb

**Prezident İlham Əliyev Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə ”Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 1,4 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyinə tapşırılır ki, sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

Nazirlər Kabineti sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## *Əli Əsədov Artur Rəsizadənin verdiyi qərarı dəyişdi*

**”Olimpiya idman növləri üzrə milli yığma komandaların Baş məşqçilərinə aylıq vəzifə maaşlarının təyin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 may tarixli 86 nömrəli Qərarında dəyişiklik edilib.**

Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, ”Olimpiya idman növləri üzrə milli yığma komandaların Baş məşqçilərinə” sözləri ”İdman sahəsində seleksiya üzrə baş mütəxəssislərə” sözləri ilə əvəz edilib.

Nazirlər Kabinetinin qeyd olunan qərarı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyində Olimpiya idman növləri üzrə milli yığma komandaların baş məşqçiləri vəzifələrində çalışan əməkdaşların vəzifə funksiyalarının Olimpiya idman növləri üzrə milli yığma komandaların baş məşqçilərinin səlahiyyətlərindən daha geniş və əhatəli olduğu nəzərə alınaraq hazırlanıb.

Bu dəyişikliyə qədər Gənclər və İdman Nazirliyində çalışan və Olimpiya idman növləri üzrə milli yığma komandalarla məşğul olan əməkdaşlar ştat cədvəlində ”baş məşqçi” kimi müəyyənləşdirilib. Bu ifadə, onların federasiyalarda çalışan baş məşqçilərlə eyniləşdirilməsinə səbəb olur, fərqli funksiyalar yerinə yetirən Nazirlik əməkdaşı ”baş məşqçi” ilə federasiya əməkdaşı ”baş məşqçi”lərin zəruri hallarda fərqləndirilməsinə mane olurdu.

Gənclər və İdman Nazirliyinin əməkdaşları olan ”baş məşqçi”lər Olimpiya idman növləri üzrə milli yığma komandalarla iş aparır, yerlərdə seleksiya işlərini həyata keçirir, təlim-məşq prosesinin, maddi-texniki bazanın təşkil olunmasına, idmançıların beynəlxalq yarışlara hazırlıq prosesinə nəzarət edir, Nazirliklə idman federasiyaları arasında əlaqəli fəaliyyət göstərir, idmanyönlü təşkilatlarla əlaqələr yaradır və digər işləri yerinə yetirirlər. Bu vəzifədə çalışanların öz iş funksiyalarına uyğunluğunu təmin etmək məqsədilə mövcud Qərarda ”baş məşqçi” vəzifə adının ”seleksiya üzrə baş mütəxəssis” vəzifə adı ilə əvəz edilməsi məqsədəuyğun hesab edilib.

Qərar 2005-ci il mayın 13-də o zamankı Baş nazir Artur Rəsizadə tərəfindən imzalanmışdı.

## *Nazirlik: Bu il şəhid ailələri və əlillərə 1500 mənzil veriləcək*

***Bu günə qədər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Azərbaycanın ərazi bütövlüyü uğrunda əlil olanlara və şəhid olan şəxslərin ailə üzvlərinə 8 min 172 mənzil verilib.***

***Bunu Sosial Xidmətlər Agentliyi sədrinin müavini Pərviz Səfərov deyib.***

***Onun sözlərinə görə, evlərin verilməsi mərhələli şəkildə həyata keçirilir: "Azərbaycan Prezidentinin 2014-cü il tarixli 569 saylı sərəncamına əsasən, bu kateqoriyadan olan şəxslərə mənzil və fərdi evlərin verilməsi prosesi həyata keçirilir və bu kateqoriyadan olan insanlar mövcud qanunvericiliyə uyğun olaraq yerli icra hakimiyyəti orqanlarında sosial məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı mənzil növbəsinə götürülürlər.***

***Qeydiyyatdan sonra rayon icra hakimiyyətləri həmin siyahını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edir.***

***Həmin siyahı nazirliyin rəsmi internet siyahısında yerləşdirilir. Nazirliyin üzərinə qoyulan öhdəliyə görə, həmin siyahı üzrə növbəliyi pozmamaq şərti ilə bu kateqoriyadan olan insanlar ilbəil mənzillərlə təmin edilir.***

***2017-ci ildə bu kateqoriyadan olan ailələrə 315 mənzil və fərdi yaşayış evi verilib. 2018-ci ildə bu rəqəm 626, 2019-cu ildə 934 olub.***

***Bu il isə həmin kateqoriyadan olan ailələrə 1500 mənzil və fərdi yaşayış evinin verilməsini nəzərdə tuturuq. Həmin 1500 evin artıq 584-ü ailələrə təqdim edilib. İlin sonuna qədər digər mənzillərin də növbəlilik prinsipi ilə verilməsini həyata keçirəcəyik".***

# Azərbaycan dəmir yollarında gediş haqlarını bank kartları ilə ödəmək mümkün olacaq

**"Azərbaycan Dəmir Yolları" QSC, Visa, Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Beynəlxalq Bankı Azərbaycanda ilk dəfə olaraq ölkəmizin dəmir yollarında sərnişinlərin gediş haqlarını bank kartları ilə təmassız ödənişi sisteminin yaradılmasına dair birgə addımlar atır.**

QSC-dən Adalet.az-a verilən məlumata görə, təmassız bank kartları və ödəniş üzüklərinin köməyi ilə ödənişlərin sınaqlarına artıq başlanılıb. Texniki sınaqlar başa çatdıqdan sonra belə ödənişlər Abşeron dairəvi dəmir yolu xətti üzrə bir neçə stansiyada mümkün olacaq. İlkin mərhələdə ödənişlər yalnız Azərbaycan Beynəlxalq Bankının Visa təmassız kartları və ödəniş üzükləri ilə aparılacaq. Layihənin növbəti mərhələlərində bu sistemin bütün bankların təmassız ödəniş alətləri vasitəsilə istifadəsi mümkün olacaq və Abşeron dairəvi dəmir yolu xəttinin bütün stansiyalarında tətbiq ediləcək. Hazırda Abşeron dairəvi dəmir yolu xəttinin sərnişinləri gediş haqlarını gediş kartları və ya biletlər vasitəsilə ödəyə bilərlər.

Layihə "Azərbaycan Dəmir Yolları" QSC, Visa, Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Beynəlxalq Bankı arasında 2020-ci ilin mart ayında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində icra olunur. Memorandum dəmir yollarında təmassız ödənişlərin inkişafına və ümumiyyətlə, nəqliyyat sektorunda nağdsız əməliyyatların genişləndirilməsinə yönəlmiş bir sıra tədbirləri nəzərdə tutur.



"Visa şirkətivə bizim strateji tərəfdaşlarımız kütləvi daşınmalar sisteminin və ictimai nəqliyyatda ödənişlər prosesinin optimallaşdırılmasına önəmli töhfə vermək üzrədir. Biz sərnişinlər üçün problemsiz gediş təcrübəsi yaratmaq məqsədilə sərnişin nəqliyyatı operatorları tərəfindən rahat nəqliyyat həllərinin işlənilməsi səylərini dəstəkləyirik. Visa-nın vəzifəsi öz təcrübə və ödəniş texnologiyalarını təklif etməklə Azərbaycanın kütləvi daşınma operatorlarına nağd pul, kağız biletlər və müddətli gediş kartlarından təmassız ödənişlərə keçiddə yardım etməkdir. Anlaşma memorandumu ölkədə nağdsız iqtisadiyyatın artmasına yönəlmiş tədbirlərə dair bizim ümumi baxışımızı əks etdirir", - Visa-nın Qafqaz regionu üzrə meneceri Kristina Doroş qeyd etdi..

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədr müavini Vüsal Aslanov məsələni şərh edərək qeyd etdi: "Biz dəmir yollarında innovasiyaların tətbiq edilməsinə səy göstəririk. Qeyd olunan əməkdaşlıq da bu istiqamətdə atdığımız mühüm addımlardan biridir. İnanırıq ki, bu yenilik sərnişinlərin rahatlığına xidmət edəcək, gediş haqlarının çox asan, sürətli və təhlükəsiz şəkildə ödənişinə imkan yaradacaq". Azərbaycan Respublikası Mərkəzi Bankının baş direktoru Fərid Osmanov həmçinin bildirdi: "Ölkəmizdə ödəniş ekosisteminin rəqəmsallaşdırılması və nağdsız ödənişlərin inkişafı məqsədilə Mərkəzi Bank tərəfindən "Nağdsız Azərbaycan" layihəsi çərçivəsində genişmiqyaslı dövlət proqramı reallaşdırılır. Bu layihə üzrə həyata keçirilmiş kompleks tədbirlər nəticəsində 2018-ci il ilə müqayisədə ölkəmizdə ödəniş kartlarının sayı 37% artaraq 9,1 milyona, təmassız kartların sayı isə 3,6 dəfə artmaqla 2,4 milyona çatıb. Artım dinamikası və nağdsız ödənişlərə yüksək bazar tələbatını nəzərə alaraq, təmassız kartların funksional imkanlarının tam həcmdə istifadəsi məqsədəuyğundur. Əminəm ki, dəmiryolu nəqliyyatında nağdsız ödəniş sisteminin tətbiqi layihəsinin uğurla həyata keçirilməsi, bu həllin ölkəmizdəki digər nəqliyyat növlərində də tətbiqinə əlverişli şərait yaradacaq".

**Azərbaycan Beynəlxalq Bankının İdarə Heyəti sədrinin müavini Elmir Həbibullayev söylədi: "Azərbaycan Beynəlxalq Bankı bir çox meyarlara görə Cənubi Qafqaz regionunun ən böyük maliyyə təşkilatlarından biridir. Bank Azərbaycanda və regionda nağdsız ödəniş infrastrukturunun inkişafına davamlı dəstək verir. Ölkəmizdə əksər innovativ bankçılıq texnologiyalarının tətbiqi məhz Azərbaycan Beynəlxalq Bankının adı ilə bağlıdır. Bank bu gün də müasir dünyanın yeni çağırışlarına cavab verən müştəri təcrübəsinin formalaşması məqsədi ilə innovasiyalara ciddi yatırımların qoyulmasına davam edir. Dəmir yolu nəqliyyatında təmassız bank kartlarından istifadə də tərəfdaşlarımızla birgə yaratdığımız uğurlu təcrübələrdən biri olacaq və müştərilərimizin rahatlığı və məmnuniyyətinə xidmət edəcək".**

# *Türkiyə və Azərbaycan qardaşlığı türk dünyasında mənəvi birliyin möhkəmləndirilməsinə xidmət edir*

**Azərbaycan və Türkiyə arasında əməkdaşlıq bütün sahələrədə uğurla davam edir.**



Adalet.az-ın məlumatına görə, bunu Azərbaycan Xarici işlər nazirinin müavini Xələf Xələfov deyib.

Nazir müavini bildirib ki, Türkiyə və Azərbaycan qardaşlığı türk dünyasında mənəvi birliyin möhkəmləndirilməsinə xidmət edir.

X.Xələfov qeyd edib ki, iki qardaş ölkənin əməkdaşlığı regionun sabitliyinə və təhlükəsizliyinə öz töhfəsini verir: ”Birgə həyata keçirdiyimiz Bakı-Tiblisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz xətti, Bakı-Tbilisi-Qars dəmir yol xətti, Trans Anadolu layihəsi xalqlarımızın rifah halının yaxşılaşdırılması ilə yanaşı, regional və qlobal inkişaf proseslərinə də öz töhfəsini verir.

Transmilli layihələrin uğurla həyata keçirilməsi iki ölkə arasında iqtisadi əməkdaşlıq üçün yeni imkanlar açır”.

Nazir müavini vurğulayıb ki, Azərbaycan-Türkiyə əlaqələri heç zaman indiki kimi yüksək olmayıb. İki qardaş ölkə arasında hərbi sahədə də əməkdaşlıq yüksək səviyyədədir: ”Bunun üçün lazımi hüquqi baza mövcuddur. Son birgə genişmiqyaslı hərbi təlimlərin keçirilməsi hər iki ölkənin ordusunun hazırlığına mühüm töhfələr verdi. Ölkələrimiz, həmçinin beynəlxalq və regional təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq edir”.

**X.Xələfov əlavə edib ki, 2019 ildə iki ölkə arasında ticarət dövriyəsi 33 faiz artıb, COVİD-19-a baxmayaraq, bu il ərzində də ticarət dövriyyəsi artıb.**

# Meriya qəsəbələri silkələyir: İcra hakimiyyətlərinin cavabdeh şəxslərinə xəbərdarlıq edildi

**Bakı şəhərində koronavirus pandemiyasi ilə bağlı bir sıra məhdudiyyətlərin mövcudluğu şəraitində Bakı Şəhər İcra Hakimiyyətinin nümayəndələri gündəlik olaraq paytaxt rayonlarında olur, əraziyə baxışlar keçirərək aşkar edilən nöqsanların aradan qaldırılması üçün yerli İcra Hakimiyyətləri nümayəndələri ilə birgə tədbirlər həyata keçirilir.**

Bakı Şəhər İcra Hakimiyyətindən Adalet.az-a verilən məlumata görə, həmçinin əməkdaşlar paytaxtın qəsəbə və yaşayış massivlərində karantin şəraitinin tələblərinə uyğun şəkildə əhali ilə görüşlər də keçirirlər. Görüşlərdə ərazidə mövcud olan nöqsanlar, onların aradan qaldırılması yolları, yeni işlərin görülməsi, qəsəbələrdə yeni abad həyət və məhəllələrin, parkların salınması və s. ilə bağlı suallar müzakirə edilir, sakinlər tərəfindn qaldırılan məsələlər qeydiyyata alınaraq onların həlli üçün müvafiq tədbirlər hazirlanır. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov da son bir neçə gün ərzində paytaxtın müxtəlif qəsəbə və yaşayış massivlərində olub, buradakı vəziyyətlə maraqlanıb və sakinlərlə görüşüb.



Xəzər rayonunun Binə, Qaradağ rayonunun Lökbatan və Pirallahı rayonunun Pirallahı qəsəbələrindəki görüşlərdə vətəndaşları daha çox narahat edən məsələlər - məişət tullantılarının daşınması, qanunsuz tikintilərin aparılması və s. məsələlərə toxunulub, müraciət və təkliflər nəzarətə götürülüb.

Vəziyyətlə yerində tanışlıqdan sonra Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov mövcud karantin qaydaları çərçivəsində Qaradağ və Xəzər rayonlarının İcra Hakimiyyəti Aparatlarında RİH əməkdaşları ilə keçirdiyi görüşdə ərazidəki vəziyyət, xüsusilə qanunsuz tikintilərlə bağlı konkret faktlar göstərib, cavabdeh şəxslər xəbərdarlıq edilib, 1 ay ərzində nöqsanların aradan qaldırılması üçün tapşırıqlar verilib.

**E.Əzizov bıldirib ki, ölkədə Prezident İlham Əliyev tərəfindən aparılan islahatlar və korrupsiyaya qarşı tədbirlər daimidir və kampaniya xarakteri daşımır. Bakı Şəhər İcra Hakimiyyəti və onun strukturlarında nizam-intizam məsələlərinin daha da gücləndirilib, kadrların fəaliyyətinə və işlərə olan nəzarət artırılıb.**

# 1 milyon 20 min 29 nəfər COVİD-19-a qarşı testdən keçirilib

**Azərbaycanda koronavirusa yoluxanların 56,1 faizi Bakı şəhərinin payına düşür.**

Adalet.az-ın məlumatına görə, ölkə üzrə ikinci ən çox yoluxma Abşeron rayonundadır. Bu zonada yoluxma 15,6 faizə çıxıb.

Aran zonası yoluxmaya görə 10,4 faizlə 3-cü yerdə, Gəncə-Qazax zonası isə 6,4 faiz yoluxma ilə yenə də 4-cü yerdədir. 4,3 faiz yoluxma Lənkəran şəhərinin, 1,8 faizi Şəki-Zaqatala, 2.1 faizi Quba-Xaçmaz, 1,0 faizi Yuxarı Qarabağ bölgəsi, 1,6 faizi isə Dağlıq Şirvan ərazilərində qeydə alınıb. Naxçıvanda isə son statistikaya görə koronavirusa yoluxma halı 0,004 faiz qeydə alınıb.




Bakı şəhəri üzrə ən çox yoluxma halları paytaxtın Binəqədi, Xətai və Yasamal rayonlarında olub. Paytaxt üzrə yoluxanların 14,3 faizi Binəqədi, 11,8 faizi Yasamal, 12,2 faizi isə Xətai rayonunun payına düşür. Yoluxma hallarının 11,6 faizi Sabunçu, 8,9 faizi Nəsimi, 8,4 faizi Nərimanov, 8,0 faizi isə Suraxanı rayonunda qeydə alınıb. Yoluxma hallarının 7,1 faizi Nizami, 7, 6 faizi Qaradağ, 5,0 faizi Xəzər, 4,7 faizi Səbail rayonlarındadır. Bakı şəhəri üzrə ən az yoluxma halı isə Pirallahı rayonunda olub. Ölkədə koronavirusa yoluxanların 21 faizi 50-59 yaş arasında, 18 faizi isə 30-39 yaş arasında olan şəxslərdir. Yoluxanların 5 faizini 0-9 yaş, 2 faizini isə 80 yaşdan yuxarı şəxslər təşkil edir.

Yoluxanların 54 faizi qadın, 46 faizi isə kişilərdir.

**Qeyd edək ki, ölkə ərazisində indiyə qədər 1 milyon 20 min 29 nəfərdə test aparılıb. Onlardan 38 min 517 nəfərdə koronavirus aşkarlanıb. Virusda yoluxanların 35 min 998 nəfəri sağalıb, Aktiv xəstə sayı 1953 nəfərdir. Bu günə qədər ölkə üzrə 566 nəfər bu virusdan dünyasını dəyişib.**

# Könül Nurullayeva: Təhsil sistemində qaydalar dəyişsə də prioritetlər dəyişməyib



**Yeni tədris ilinin yeni formatda təşkil edilməsinin əsas məqsədi şagirdləri, təhsil işçilərini və ümumilikdə vətəndaşlarımızı COVİD-19 virusundan qorumaqdır. Bu barədə dövlət başçımızın Bilik Günü ilə bağlı müraciətində də qeyd olunub. Pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, ölkəmizdə təhsil infrastrukturunun təkmilləşdirilməsi, yeni təhsil müəssisələrinin inşası və ya təmiri davam etdirildi. Bu prosesdə əsas dəstəkçilərdən biri regionun ən nüfuzlu və ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondunun rolunu xüsusi qeyd etməliyik.**

Bunu Milli Məclisin deputatı Könül Nurullayeva deyib.

Deputat bildirib ki, 2020-ci il də 147 məktəbin tikintisi nəzərdə tutulur ki, onlardan 45-i Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilib:

"Heydər Əliyev Fondunun 2005-ci ildən reallaşdırdığı "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində bütövlükdə ölkə ərazisində təhsil müəssisələri keyfiyyət standartlatına uyğun şəkildə təkmilləşdirilib. Fondun dəstəyi ilə 62 təhsil müəssisəsi istifadəyə verilir. Belə ki, 2020-2021-ci tədris ilində Heydər Əliyev Fondunun dəstəyi ilə respublikanın müxtəlif bölgələrində yeni məktəb və məktəbəqədər təhsil müəssisələri inşa olunub və əsaslı təmir edilib.

Ümumiyyətlə, Heydər Əliyev Fondu fəaliyyətə başladığı ilk gündən təhsil sahəsini prioritet kimi diqqətdə saxlayır, müxtəlif layihələr və proqramlar icra etməklə təhsilin inkişafına öz töhfəsini verir. Fond yeni məktəblərin, məktəbəqədər təhsil müəssisələrinin tikilərək istifadəyə verilməsinə də öz dəstəyini əsirgəmir. Ümumiyyətlə, son 17 ildə Azərbaycanda 3700-ə qədər məktəb tikilib və əsaslı şəkildə təmir edilib. Eyni zamanda ali məktəblərin əsaslı bərpa olunması, yeni korpusların tikintisi də davam etdirilir. Bir sözlə, son illərdə təhsilin maddi-texniki bazası möhkəmlənib və təbii ki, təhsilin keyfiyyətini də bu dinamikaya uyğunlaşdırmaq başlıca şərtdir. "Qara qızıl"ı insan kapitalına çevirmək əsas inkişaf strategiyalarından biridir. Prezident İlham Əliyevin Bilik Günü ilə bağlı müraciətində də qeyd olunduğu kimi, dünyada qloballaşma adı altında gənclərin beyinlərinin yuyulması kimi təhlükəli tendensiya müşahidə olunmaqdadır. Bu cür təhlükələrin qarşısını təbii ki, düzgün və fundamental təhsil, maariflənmə sayəsində almaq mümkündür. Təcrübə göstərir ki, intellekt, milli-mənəvi dəyərlərə sadiqlik sağlam yanaşma və düzgün qərarların qarantıdır. Təhsilin dövlət siyasətinin əsas prioriteti kimi inkişafında da məqsəd Azəbaycan gənclərinin milli-mənəvi dəyərlərə sadiq, intellektual vətəndaş kimi formalaşmasını təmin etməkdir".

**Nicat**

## Hansı liderə daha çox etimad olunur: Putin yoxsa Tramp?

**Vaşinqtonun ”Pew Research Center” müstəqil araşdırma mərkəzi dünya liderlərinə olan etimad səviyyəsi barədə tədqiqat keçirib.**

Bu barədə ”RİA Novosti” məlumat yayıb.

Sorğuda Kanada, İtaliya, Britaniya, Yaponiya, İspaniya, Fransa, Almaniya, həmçinin Belçika, Danimarka, Avstraliya, Niderland, Cənubi Koreya və İsveç iştirak edib.

Donald Tramp və Putinə etimadla bağlı sualla yanaşı, həmçinin araşdırmada Almaniya, Britaniya, Çin və Fransa liderlərinin də etimad səviyyəsi tədqiq edilib.

Sorğu göstərib ki, 13 ölkənin əhalisi Putinə (23 faiz) Trampdan (16) daha çox güvənir.

Beləliklə, ABŞ Prezidenti siyahıda sonuncu olub. Çin lideri 19 faizlik göstərici ilə onu qabaqlayıb.

Etimad səviyyəsinə görə ilk pilləni Almaniya kansleri Angela Merkel (76 faiz) tutub. Növbəti yerlərdə Fransa lideri Emmanuel Makron (64 faiz) və Böyük Britaniyanın Baş naziri Boris Conson (48 faiz) qərarlaşıblar.

# "Bakının azad edilməsi başla bədənin birləşməsi idi"

*15 Sentyabr Bakının işğaldan azad olunduğu gündür. "Ədalət" qəzetinin "Dəyirmi masa"sında bu günün əzəmətindən danışacağıq. Tarixi vərəqləyib 15 Sentyabrdan sonra daha da möhkəmlənən Türkiyə-Azərbaycan qardaşlığından da bəhs edəcəyik. Qonaqlarımız tarix elmləri namizədi, dosent Boran Əziz və tarix üzrə fəlsəfə doktoru, dosent Firdovsiyyə Əhmədovadır.*





**-15 Sentyabr tariximizdə müstəsna əhəmiyyət daşıyan bir hadisədir. Bu tarixlə bağlı fikirlərinizi öyrənmək istərdim...**

**B. Əziz:** "28 Maydan sonra Azərbaycan tarixində ən böyük bayram 15 Sentyabrdır. Əgər 28 Mayda Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdısa, 15 Sentyabr Rəsulzadənin sözləri ilə demiş olsaq, Cümhuriyyətin yaşama qabiliyyətinə malik olmasını sübut elədi. Həm Məhəmməd Əmin Rəsulzadənin, həm də Fətəli xan Xoyskinin söylədiyi kimi, Bakının azad edilməsi başla bədənin birləşməsi idi. Bu baxımdan deməliyəm ki, Azərbaycanın dövlətçilik tarixi eramızdan əvvəl 3-2-ci minilliklərdən başlasa da, heç bir zaman torpağımızda adı Azərbaycan, paytaxtı Bakı olan bir dövlət olmamışdır.

Tarixdə ilk dəfə paytaxtı Bakı, adı Azərbaycan olan bir dövləti ilk dəfə Rəsulzadə və onun qəbri nurla dolmuş silahdaşları yarada bildilər.

Bakının yadelli işğalçılardan azad olunması Azərbaycan tarixində çox əhəmiyyətli bir hadisədir. Bolşevik Rusiyası Bakını, ümumiyyətlə, Azərbaycana aid hesab etmirdilər. Məsələ burasındadır ki, çar Rusiyası Azərbaycanı işğal etdikdən sonra Bakıya, əvvəllər burada bir nəfər də olsun, rus olmadığı halda, rus əhalisi köçürmüşdü. Bu şəhəri faktiki olaraq özününküləşdirmişdilər.

Həmin dövrdə Bakı şəhərinin əhalisinin üçdə ikisi qeyri-azərbaycanlı idi. Bu baxımdan Bakını Azərbaycanın əlindən tamamilə almaq üçün Bolşevik Rusiyası Almaniya ilə müqavilə də imzalamışdı. Müqaviləyə görə, Bakıdan çıxarılan neftin 25 faizi almanlara verilməli idi və nəticədə almanlar öz müttəfiqi olan Osmanlı orudusuna Bakını yadelli işğalçılardan azad etməyə mane olmalı idilər. Bütün bu çətinliklərə-həmin dövrdə Bolşevik Rusiyasının, Almaniyanın və digər dövlətlərin manələrinə baxmayaraq Osmanlı ordusu ilə Azərbaycan Korpusu birlikdə Bakını yadelli işğalçılardan azad etdilər. Ona görə deyilir ki, bu çox tarixi əhəmiyyətli bir hadisədir".

**F. Əhmədova:** "15 sentyabr 1918-ci il Azərbaycanın təkcə öz paytaxtına deyil, həqiqi istiqlaliyyətinə qovuşduğu gün olmuşdur. Bakını Azərbaycandan ayırmaq cəhdi 100 il öncə də olub və sovetlər dönəmində də buna səylər edilib. Diplomatiyanın həll edə bilmədiyi "Bakı məsələsi"ni Qafqaz İslam Ordusunun əzmkarlığı gerçəkləşdirdi.

Bu əzmkarlıq Almaniya ilə Sovet Rusiyasının Bakı üzərindəki sövdələşməsini alt-üst etdi. Sənəd siyasi-diplomatik, beynəlxalq dövriyyəyə girmədən işləməz hala gəldi.

Bu sövdələşmədən xəbər tutan M. Ə. Rəsulzadə yeganə çıxış yolunu Cümhuriyyətin xarici işlər naziri M. H. Hacınskiyə xüsusi məktubunda qəti məzmunda ifadə etmişdir: "Necə olursa, olsun Bakını almaq, almaq və almaq lazımdır". "Biz hamını baş vermiş fakt qarşısında qoymalıyıq" mesajını versə də, M. Ə. Rəsulzadə "Mərkəz" bloku, həmçinin, bitərəf dövlətlərin səfirliklərinə Azərbaycan sülh heyətinin sədri kimi nota göndərmişdir.

Bakının qurtuluş xəbərini İstanbulda alan Rəsulzadə hökumət başçısı F. X. Xoyskiyə təbrik teleqramı göndərmişdir. Noyabrın 7-də Bakıya dönən M. Ə. Rəsulzadə Bakının Azərbaycana bağlılığı tarixini qələmə alaraq "Azərbaycan paytaxtı" başlıqlı məqalə ilə "Azərbaycan" qəzetinin 5-ci sayında çıxış etmişdir. Məqalənin sonuncu hissəsi Cümhuriyyətin bir illik yubileyi ilə əlaqədar 1919-cu il mayın 28-də işıq üzü görmüş, "İstiqlal" məcmuəsində dərc edilmişdir.

Qurtuluş şəhidlərinin xatirəsinə ehtiramla 1919-cu il sentyabrın 15-də Azərbaycan ordusunun rəsmi keçidi oldu. Eyni zamanda "Qurtuluş abidəsi"nin bünövrəsi qoyuldu. Amma Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı həmin abidənin tamamlanmasına imkan vermədi. Abidə qoyulmuş olsa idi belə, bolşevik hakimiyyətinin birmənalı olaraq tarixdən silmək istədiyi ilk milli izlərdən olacaqdı.

Qurtuluş günü kimi sentyabrın 15-i Azərbaycan istiqlal hərəkatının tarixinə yazıldı: "Bu etibarla dəxi Eylülün 15-i qurtuluş günüdür"".

**-Bəlli ki, 15 sentyabr Türkiyə-Azərbaycan qardaşılığı zəminində olan bir hadisədir...**

**F. Əhmədova:** "Qafqaz İslam Ordusu Azərbaycan və Türkiyə hərbi əməkdaşlığının şanlı səhifəsidir. Azərbaycan ordusu Osmanlı zabitlərinin dəstəyi ilə savaşa-savaşa qurulurdu.

Azərbaycanın görkəmli hərbi xadimləri Əlağa Şıxlinski, Həbib Səlimov və b. Osmanlı zabitləri ilə birgə şərəfli bir missiya gerçəkləşdirdilər. Qafqaz İslam Ordusu 100 ili aşan bir tarix yazdı. Türk milləti adına yazılmış bu tarix sadəcə bir hərbi salnamə deyil, 100 ilin sınağından çıxmış mənəvi bağlılıqdır. Azərbaycan naminə canından keçmiş Türk əsgər və zabitinin məzarları Cümhuriyyətimizin hüdudlarını xəritədən torpağa köçürən, geniş Vətənimizin coğrafiyasına tikilmiş yaddaş abidələridir. Azərbaycan xalqı sovet dövrünün yasaqlarına, təqiblərinə baxmayaraq, türk nişanlı məzarları qorumuş, saxlamış, müstəqilliyinə qovuşduqda isə bərpa-tikinti işləri aparıb, ətrafını abadlaşdıraraq ziyarət yerinə çevirmişdir.

Bakının Azərbaycan xalqına qaytarılması yolunda şəhid olmuş türk hərbçilərinin uyuduğu məzarlıqlar bu gün ziyarət yerləridir. Bakının mərkəzində türk şəhidliyinə ucaldılmış abidənin yerləşdiyi yer Şəhidlər xiyabanıdır. XX yüzilliyin sonunda dövlət müstəqilliyini bərpa etmək naminə şəhid olmuş onlarla azərbaycanlının məzarını ziyarət edərkən onların vaxtsız həyatdan getmələrindən kədərlənməklə yanaşı, hansı amal və əqidə yolunda mübarizə apardıqlarını unutmamalıyıq. Ümumi fəaliyyətimizi Vətənimizin tərəqqisi, dövlətçiliyimizin möhkəmlənməsi işinə yönəltməyi bacarmalıyıq".

**B. Əziz:** "Mən bir az fərqli səpkidə danışacam. 2002-ci ildə Türkiyədə Bursa şəhərində "Qafqazda sabitliyin yaradılması" adlı beynəlxalq konfransda iştirak edərkən Türkiyə-Azərbaycan əlaqələrinin tarixi ilə bağlı bir məruzəm olmuşdu. Həmin konfransda belə söyləmişdim ki, Türkiyə-Azərbaycan qardaşlığı üçüncü bir millətin Qafqazdan sürgün edilməsinə, onlara qarşı soyqırım tətbiq edilməsinə və ya onların deportasiya edilməsinə yönəlməyib. Bundan başqa Qafqazda möhkəmlənmək üçün Rusiya və Ermənistanın ittifaqı müsəlman və türklərin Qafqazda tamamilə məhv edilməsinə, onların buradan sürgün edilməsinə yönəlib.

Türkiyə ilə Azərbaycanın dostluğu fərqli aspektdədir. Dünya birliyi bunu aydın bilməlidir. Avropa ölkələri öz sərhədlərinin təhlükəsizliyini Qafqazdan götürürlərsə, onlar birmənalı şəkildə bilməlidirlər ki, Qafqazın sabitliyinin pozulmasının başlıca şərti erməni və rus birliyidir. Avropada təhlükəsizliyin təmin edilməsində bu faktor ciddi nəzərə alınmalıdır".

**Rövşən Tahir**

Nəriman Qasımoğlu

# Türkiyə həm sizindir, həm bizim



*"Bir millət - iki dövlət" ifadəsinə aid məzmunu ilk dəfə sürəkli alqışar altında yüksək tribunadan car çəkən bilsəniz kim olub? Və bu necə, nə zaman baş verib? Harada?*

*Ötən əsrin 70-ci illərinin ortaları olardı. Türkiyə müğənnisi Müşərrəf Tezcan (sonralar Müşərrəf Akay) Bakıda anşlaqla keçən qastrol konsertində idi. İndiki Heydər Əliyev, o zamankı Respublika sarayında keçirilən son konsertinə çətinliklə bilet tapıb ailəlikcə getmişdik.*

*Hər ifasından sonra gül dəstələrinə qərq edilən Müşərrəf xanım da, Türkiyə sevdalısı seyrçilər də çox duyğulu görünürdülər. Gülləri ona verənlər əsasən gənclər idi. Bundan ötrü səhnəyə qalxanlar arasında valideynlərinin tapşırığını canfəşanlıqla yerinə yetirən və bunu özlərinə əyləncə bilən azyaşlı uşaqlar da az deyildi.*

*Müşərrəf xanımı sevdirən bir də əlində mikrofon ara sıra tamaşaçılarla həvəslə ünsiyyətə girməsi, gözəl natiqliyi, bəlli bir intellekt sərgiləməsi, səhnədə sərbəst davranışları, ümumiyyətlə, bizimkilər üçün aşkar fərqli ampluada olması idi. Bir sözlə, sənətçi xanım konsert auditoriyası ilə məhrəm bir əlaqə yaratmağa tam nail olmuşdu.*

*Konsertin bir məqamında oxuduğu şarkıdan sonra sevənlərini yenə səhnədəcə qarşılayıb bağrına basır. Bir uşaq yaxınlaşır ona. Gül dəstəsini uzadır. Diqqətcil, həssas xanım duyur bu uşağın ona nə isə deyəcəyi var. Dərhal mikrofonu uzadır uşağın dillənən dodaqlarına sarı. Uşaq:*

*- Türkiyə həm sizindir, həm bizim, - deyir.*

*Və sarayı alqış sədaları bürüyür. Müşərrəf xanım şövqə gəlir, onun üçün də təbii olaraq gözəl bir fürsət yaranıb ki, içindəkiləri daha aşkar biruzə versin:*

*- Nasıl söylədin yavrum, tekrar söylesene!*

*Uşaq təkrarlayır:*

*- Türkiyə həm sizindir, həm bizim!*

*Yenə alqışlar...*

*Özü də uşağın ardınca:*

*- Türkiyə həm sizindir, həm bizim, - deyir.*

*Seyrçi alqışlarının bu dəfəki ünvanı təkcə xanım sənətçi deyil. Görünür, bunu hiss etdiyindəndir ki, səhnədə azərbaycanlı uşaqla zaldakılar üçün ucadan səslənən ekspromt bir dialoq qurur:*

*- Oğlanmısın, kızmısın, yavrum?*

*- Qızam.*

*- Saçlarına ne yapmışsın, neden hiç saçların yok?*

*- Saçımı qırxıblar.*

*- Kaç yaşındasın?*

*- ...*

*- Hm... Neçe yaşın var diye soruyorum.*

*- Dörd yaşım var.*

*- Allah korusun seni nazardan. Seni şuraya gönderen annene, babana teşekkür ederim, sağ olsunlar. Hadı bir kez dahi söylermisin? Nasıl dedin? Türkiye...*

*- Türkiyə həm sizindir, həm bizim!*

*Alqışlar qopur. Müşərrəf xanım qızcığazı üzündən-gözündən öpüb bağrına basır.*

*Az keçmir sarayın iki qadın əməkdaşı səhnəyə hər iki tərəfdən bitişik pillələrın qarşısını ərəbzəngi kimi kəsdirir və heç kimə daha imkan vermirlər xanım sənətçi ilə ünsiyyətə girsin.*

*Gül dəstələrini aşağıdan yuxarıya uzatmalı olurlar, müğənni də aşağı əyilərək minnətdarlıqla gülləri götürür. Amma ona bu möhnəti yaşadan KQB - Tərlükəsizlik xidməti qarşısında borclu qalmır. Mikrofonla ucadan alt mənası hamıya aydın ifadələrini səsləndirir:*

*- Tüm alkışlarınızdan, güzel çiçeklerinizden, sevgilerinizden dolayı ben sizin önünüzdə eyiliyorum, onların yok. Bu nasıl bir gün, ellerimiz ellerinize ulaşmıyor.*

*Və bu sözlərin ardınca da hüznlü nəğmələr...*

## BMT-dən Liviya ilə bağlı kritik qərar



**BMT Təhlükəsizlik Şurası Liviyaya qarşı tətbiq edilən silah embarqosuna riayət edilməsini və muzdluların ölkədən çıxarılmasını tələb edən qətnamə qəbul edib.**

Təhlükəsizlik Şurası eyni zamanda, Liviyaya Dəstək Missiyasının səlahiyyət müddətini 15 sentyabr 2021-ci il tarixinədək uzadılmasını qərara alıb.

Digər tərəfdən, diplomatik qaynaqlardan əldə edilən məlumata görə, BMT-nin Liviya üzrə xüsus təmsilçisi vəzifəsinə bolqar diplomat Nikolay Mladenovun gətirilməsi planlaşdırılır. Qananın sabiq Xarici İşlər naziri Hanna Server Tettehin də bu vəzifə üçün adı hallanır.

## Türkiyə AB-yə boğazları bağlamaqla cavab verə bilər



**Türkiyə boğazları Montrö müqaviləsinə əsasən bağlaya bilər.**

Bunu ehtiyatda olan türkiyəli polkovnik Midhəd İşıq deyib.

"Əgər Şərqi Aralıq və Egey dənizindən Türkiyəyə təhdid yaranarsa, Ankara boğazları Montrö müqaviləsinə əsasən bağlaya bilər. Hazırkı proseslər belə davam edərsə, boğazların bağlanması gündəmə gəlməlidir. Bu, Türkiyənin haqqıdır. Ankaranın bundan istifadəsi AB liderlərinin önümüzdəki həftə keçirəcəyi iclasda qəbul edilən qərarlara görə formalaşa bilər", - polkovnik bildirib.

## İran ərəb nazirləri təhqir etdi: Trampın sirkində oynadılar

**Bəhreyn və BƏƏ nazirləri Trampın sirkində oynadılar.**

Bu sözləri İran məclisinin spikerinin köməkçisi Əmir Əbdüllahian deyib. "Dünən ərəblərin torpaqlarının bir hissəsini sionizm işğal edir, bu gün də yeni üsulla Bəsrə körfəzi ölkələri işğal edilir. Böyük Misirlə razılaşma İsrail üçün açılım gətirmədi. Misirin bir adası boyda olan BƏƏ və Bəhreyn İsrailə sadəcə güvənsizlik bəxş edəcək", - deyə İran rəsmisi bildirib.

Qeyd edək ki, ötən gün İsrail, BƏƏ və Bəhreyn rəsmiləri Ağ Evdə ilkin normallaşma ilə bağlı tarixi müqavilə imzalayıblar.

**MEHRİBAN**

# "Uğurlusu da var, uğursuzu da"

## Yeni xəbər proqramları müzakirə edildi

**Bir neçə gündür ki, sosial şəbəkələrdə yeni mövsümə başlamış televiziya kanallarımızda olan dəyişikliklər geniş müzakirə olunur. Belə ki, fərqli studiyalar ilə tamaşaçı önünə çıxan televiziya kanallarımızın xəbər proqramlarındakı yeniliklər birmənalı şəkildə qarşılanmır. Xəbərdə "Forma ilə məzmun vəhdətdə olmalıdır" prinsipini rəhbər tutaraq bəziləri vurğulayır ki, televiziyalarımızda hazırda forma məzmunu üstələyib. Yəni kanallar xəbər proqramlarında yeni studiyalarını geniş planda göstərməklə tamaşaçının diqqətini xəbərdən yayındırırlar.**

Adalet.az saytı olaraq "Formanın (studiyanın görünüşü) məzmunu (xəbərin mahiyyəti) üstələməsi nə dərəcədə doğrudur?" sualına cavab tapmağa çalışdıq. Məsələ ilə bağlı isə **media eksperti, professor Qulu Məhərrəmli**yə müraciət etdik:

"Mövzu ilə əlaqədar onu söyləyə bilərəm ki, xəbər proqramlarının özlərini tanıtması (buna promotion deyirlər), anonsların verilməsi özlərinin işlərini qapartması üçün bu cür klipvari çəkilişlərdən istifadə olunur. Bu dünyanın hər yerində var.



Amma tərkib necə olmalıdır, bax bunu bilmək lazımdır. Xəbərlərdən seçmə olmalıdır, yoxsa hansısa üsullardan istifadə edilməlidir? Fikrimcə, indiki halda bizim televiziyalar daha çox xəbər məkanının üstünlüyünü nümayiş etdirmək istəyirlər. Bu məqsəddən asılı olaraq da ifadə vasitələri-görüntülər seçilir. Bunların içərisində, təbii ki, uğurlusu da var, uğursuzu da. Bütövlükdə əsas məqsəd xəbər abu-havasının yaradılması olmalıdır. Fikrimcə, kanallarımız o abu-havanı yarada bilir. Söhbət ondan gedir ki, kanallara baxarkən xəbərlərin məzmununu görə bilirikmi? Hansısa operativlik varmı, hansısa plüralist xəbər varmı? Tamaşaçının marağına xidmət edən, onu düşündürən xəbərlər önə çəkilirmi? Bax buna diqqət yetirilməlidir. Zənnimcə, gələcəkdə kanallarımız bunu nəzərə almalıdırlar. Ki, tamaşaçılar onların xəbər proqramlarına baxa bilsin".




**Rövşən**

# Şəhid üçün tikilən evi söküb yerində məscid tikmək istəyən şəxs saxlanılıb

**14 sentybar 2020-ci il tarixində Şəmkir rayon İcra Hakimiyyətindən rayon Polis Şöbəsinə daxil olan müraciətdə bildirilib ki, rayonun Dəllər qəsəbəsində İcra Hakimiyyəti tərəfindən ayrılan torpaq sahəsində torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan Zaur Abbasovun həyat yoldaşı, 2-ci qrup əlil, Minayə Abbasova üçün tikilən fərdi yaşayış evini qəsəbə sakini Edqar Osmanov sökərək, həmin ərazidə məscid tikdirəcəyini iddia edərək öz hüquqazidd əməllərini çəkərək bir sıra sosial şəbəkələr və xəbər saytlarında paylaşmışdır. Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyindən daxil olan məlumatda deyilir.**

Bildirilir ki, müraciətlə əlaqədar RPŞ-nin əməkdaşları dərhal həmin əraziyə gələrək E.Osmanovla izahedici-profilaktiki söhbətlər aparılmasına baxmayaraq sonuncu, qanunsuz əməllərinə davam edərək polisin qanuni tələblərinə tabe olmayaraq cəmiyyətə açıqca hörmətsizlik edərək qanunsuz əməllərini gələcəkdə də davam etdirəcəyini bildirmişdir. Buna görə də Edqar Osmanov polis əməkdaşları tərəfindən saxlanılaraq RPŞ-yə gətirilib və onun barəsində protokol tərtib edilərək baxılması üçün rayon məhkəməsinə göndərilib.



**Məhkəminin qərarı ilə E. Osmanov Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 510 (Xırda xuliqanlıq, yəni ictimai qaydanı pozan, lakin fiziki şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət edilməyən hərəkət) və 535.1 ( Polis işçisi və ya hərbi qulluqçu ictimai qaydanın mühafizə vəzifələrini icra edərkən, onların qanuni tələblərinə qəsdən tabe olmama) maddələri ilə təqsirli bilinərək 10 gün müddətinə inzibati qaydada həbs edilib.**

## ABŞ QARA DƏNİZƏ İKİNCİ HƏRBİ GƏMİSİNİ GÖNDƏRDİ



**ABŞ Qara dənizə ikinci - 6-cı dəniz donanmasının USNS Yurma sürətli desant hərbi gəmisini göndərib. Daha əvvəl "Ruzvelt" esminensi Qara dəniz ərazisinə göndərilmişdi. Vaşinqtondan verilən rəsmi məlumata görə, hərbi gəmilərin Qara dənizə göndərilməsində məqsəd, NATO tərəfdaşlarının təhlükəsizliyini təmin etmək üçün əməliyyatlar keçirməkdi.**

Bildirilir ki, ABŞ-ın Hərbi Dəniz Donanmasının hərbi komandanlığını aparan USNS Yuma gəmisi Qara dənizdə mütamadi olaraq NATO tərəfdaşlarının təhlükəsizliyi baxımından belə əməliyyatlar keçirir.

## "AVROPADA NEOFAŞİSTLƏR FƏALLAŞIR"

**RİA Novostinin məlumatına görə, Rusiya Federasiyası İstintaq Komitəsinin rəhbəri Aleksandr Bastrıkin müsahibəsində bəyan edib ki, Avstriya, İtaliya və İspaniyada neonasistlər fəallaşmağa başlayıb.**

"Biz müşahidə edirik ki, Litvada, Latviyada və Estoniyada Nürinberq tribunalı tərəfindən cinayətkar kimi tanınan, keçmiş SS bölmələrində xidmət etmiş hərbiçilər mükafatlandırılır.

Ukraynada məktəblilər çoxsaylı insan qanı tökmüş nasistlərin məzarlarına gül dəstəsi aparırlar. Hitler Almaniyası ilə əməkdaşlıq edənlər qəhrəman kimi anılırlar. Artıq Avropada da neofaşistlər baş qaldırmağa başlayıblar" - deyə Bastrıkin bəyan edib.

Rusiyada nasismin reabilitasiyası və təbliğatı cinayət məsuliyyəti daşımağına baxmayaraq, bir çox saytlar vətən xainlərinin və nasistlərin şəkillərini paylaşırlar. İstintaq Komitəsinin sədri müsahibəsində binunla bağlı bir neçə cinayət işinin istintaqının aparıldığını, Perm şəhər sakini Daniil Simonovun mühakimə olunaraq məhkəmənin qərarı ilə 200 saatlıq məcburi əməyə cəlb olunduğunu bildirib.

**Rüstəm HACIYEV**

# KİŞİ MÜƏLLİMLƏR MƏKTƏBİ NİYƏ ATIB GETDİLƏR?

**... Ötən yazımızda müəllimlik peşəsinin müqəddəs olduğunu dönə-dönə vurğulamışdıq. Vurğulamışdıq ki, bu peşənin sahibləri ömrünü şagirdlərin və tələbələrin yollarında şam kimi əridiblər. Əgər dediyimiz və söylədiyimiz bu fikrə kiminsə iradı varsa, buyurub faktlarını və arqumentlərini ortaya qoya bilərlər. Ancaq ən böyük fakt ondan ibarətdir ki, bu gün yüz minlərlə insana elm öyrədən, təlim-tərbiyə verən Azərbaycan müəllimləri Milli Qəhrəman adına layiqdirlər. Və bu ifadə də mənə yox, istedadlı yazıçı-publisist, millət vəkili, qəzetimizin təsisçisi və baş məsləhətçisi hörmətli Aqil Abbasa məxsusdur. Aqil müəllim dəfələrlə bu mövzu ilə bağlı əks-səda yaradan yazılar qələmə alıb, az maaşla ömrünü-günü bizim övladlara xərcləyən müəllimləri Milli Qəhrəman adlandırıb. Və bu gün də böyük müəllim ordusu demək olar ki, o ənənələri davam etdirir, bu peşənin şərəfini, qürurunu qoruyurlar.**





Mənim bu mövzuda ikinci yazını qələmə almağımın elə ideyasını da dostumuz və qardaşımız Aqil Abbas verdi. Dedi ki, bu məsələni və mövzunu yenidən gündəmə gətir, müəllim peşəsinin müqəddəsliyini bir daha cəmiyyətin diqqətinə yönəlt. Üstəlik, onu da əlavə elədi ki, son 15-20 ildə Azərbaycanda kişi müəllimlər məktəbdən uzaqlaşıb, qadın müəllimələr daha da çoxalıb. Və Aqil müəllim bunun səbəblərin də izah elədi. Və yadıma orta məktəbdə oxuyanda bizə dərs demiş kişi müəllimlər düşdü.

### Bəhmənlinin məktəb direktoru

***Əvəz müəllimin qeyri-adi və özünə məxsus iş metodunu bir daha xatırladım. Çünki Əvəz müəllimdən tək biz şagirdlər deyil, həm də bizə dərs deyən müəllimlər də çəkinirdilər. Bir müəllimin cürəti nə idi dərsə geciksin, yaxud da sinifə hazırlıqsız daxil olsun. Əvvəlcədən hər bir müəllim öz işini bilirdi və bütün məsələləri də vaxtında həll eləyirdi. Əvəz müəllim də heç bir müəllimə xəbərdarlıq eləmədən əlində bloknot qəfil qapını açıb sinifə girər, müəllimə, bizə salam verər və keçib arxada əyləşərdi. Arxada əyləşib öz qeydlərini aparar, dərs başa çatandan sonra təbii ki, həmin müəllimə müsbət və mənfi işlərini xatırladardı.***

Məktəbin direktoru Əvəz müəllim ən yaxşı oxuyan şagirdə belə güzəşt eləməzdi. Məktəbimizin ən yaxşı şagirdlərindən olan və "əla" qiymət alan Şirxan Adıgözəlov bir dəfə səhv etdiyinə görə, Əvəz müəllim ona bir şillə vurmuşdu. Atası Yusif kişi də gözünün ağı-qarası bir oğlu olan Şirxana haqq qazandırmamışdı. Və Əvəz müəllimin vurduğu o şillə Şirxanı Azərbaycanın ən savadlı və ən hörmətli prokuroru elədi.

### Və o şillə

Şirxan Adıgözəlovu hüquq elmləri namizədi, hüquq elmləri doktoru səviyyəsinə qaldırdı. Əvəz müəllimin bizə vurduğu hər bir şillə bir işıq idi, bir nur idi. Özü də rəhmətliyin əli pambıq kimi yumyumuşaq idi. Bəzən biz o şillə üçün darıxırdıq. O şillə məktəbimizdə çox uşaqları elmlər doktoru, prokuror, general, hakim, rəis, şair, yazıçı elədi. Bax, Əvəz müəllimin o şilləsi olmasaydı, heç mənim üzüm də gəlib jurnalistikada bu mövqeyə və nüfuza çata bilməzdim.

***Amma indi bir müəllim yolunu azan, ipə-sapa yatmayan və bəzən də onların üzünə ağ olan şagirdinə bir çırtma vurur, aləm bir-birinə dəyir. Valideyn məktəbə müəllimin üstünə hücum çəkir, dişinin dibindən çıxanı ona deyir və uşağına haqq qazandırır. Hətta bəziləri müəllimi bir sülləyə, bir çırtmaya görə prokurorluğa, polisə verir. Təbii ki, sonradan bunu gözünün qabağına gətirən müəllim uşaq sinifi dağıtsa da, hətta müəllimin çiyninə çıxsa da, susub durur. Və deyir ki, altda qalanın canı çıxsın.***

Altda da qalan və sonradan şikəst olan bizim övladlarımız, nəvələrimizdi. Müəllim ona "gözün üstündə qaşın var" deyə bilmir və o uşaq da yolunu azır, dərsdən qaçır, siqaret çəkir və bəzən də narkomaniyaya qurşanır. Heç kimə gizli deyil ki, bu gün narkomanlıq faktı orta məktəblərdə də mövcuddur. Kim nə deyir desin, qorxu olmayan yerdə həmişə xaos, özbaşınalıq, dərəbəylik hökm sürür. Çünki müəllim o dəcəl uşağa deyə bilmir ki, sən niyə siqaret çəkirsən? Sən niyə dərsdən qaçırsan? Sən niyə pis vərdişlərə qurşanırsan? Deyən kimi də uşaq qaçır valideynlərinin yanına, valideynləri də səsini atır başına, hücum çəkir məktəbə. Məktəbdə direktor, müavinləri və müəllimlər onun qarşısına çıxıb onu necə sakitləşdirəcəklər? Bax, əsas məsələ də elə burdan qaynaqlanır. Yəni bəzi valideynlər müəllimə haqq qazandırmaq əvəzinə övladlarının yamını əldən vermirlər.

### Kişi müəllimlərinin məktəbdən uzaqlaşması

heç də elə-belə baş vermədi. Çünki kişi müəllimlər bir çox halda gördülər ki, az məvaciblə ailəni dolandıra bilmirlər. Ona görə də bir çox kişi müəllimlər məktəbdən gedib ya təsərrüfatla məşğul oldular, ya da alverlə! Məsələn, mənim tanıdığım çox savadlı kişi müəllim özünə biznes qurdu və bu biznesin hesabına da ağ günə çıxdı. Amma hər müəllim də axı biznesi bacarmır. Digərləri isə çox çətinliklə üzləşdilər, ağır anlar və mürəkkəb durumda yaşamağa məcbur oldular.

***Məktəbdən gedən kişilərin yerini isə qadınlar tutdular. İndi heç kimə sirr deyil ki, Azərbaycan təhsil sistemində çalışan müəllimlərin 80 faizə yaxını qadınlardı. Düzdür, onların da arasında çox ciddi, sərt nizam-intizam yaradan direktorlar, müəllimlər var. Amma vallah, bunlar heç biri kişi müəllimlərin zəhminin, ciddiliyinin yerini verə bilmir. Bəlkə də verə bilir, mən bunu hiss etmirəm. Amma hiss etdiyim odur ki, bu gün məktəblərdə kişi müəllimlərə daha çox ehtiyac duyulur. Çünki onlar dava-dalaş salan, haqsız yerə məktəbə hücum eləyən və öz dəcəl uşaqlarına haqq qazandıran valideynlərin qarşısına çıxmağı bacarırlar. Və kişi müəllimlər ipə-sapa yatmayan və hətta qadın müəllimələri saya salmayan, onlara təpki göstərən o dəcəl uşaqların "dilini tapmağı" bacarır və onları çətinliklə də olsa tərbiyə, islah eləyə bilir. Və kişi müəllimlərdən sözün açığı, o dəcəl uşaqlar da, onların harınlamış valideynləri də bir çox halda çəkinirlər. Ən azından ona görə ki, kişi kişidir, qadın da qadındı. Mən bunula heç də Azərbaycan təhsil sistemində ömrünü-gününü şagirdlərə həsr eləmiş qadın müəllimələrin fəaliyyətinə kölgə salmaq istəmirəm. Sadəcə, onu demək istəyirəm ki, Azərbaycan məktəblərində intizamın daha da möhkəmləndirilməsinə və tədrisin səviyyəsinin yüksəldilməsinə ehtiyac duyulur. Gənc və təcrübəsi olmayan 30-35 yaşında bir qızı məktəbə direktor təyin edirlər. Biri var həmin direktor 30-35 yaşlı oğlan olsun, biri də var qız. Bax, hansının işi effektli olar? Bunu təbii ki, təhsil işçiləri daha yaxşı bilərlər.***

### Son bir neçə ildə

Azərbaycanda təhsil sahəsində çox uğurlu islahatlar aparılıb. Müəllimlərin diaqnostik qiymətləndirilməsi keçirilib və ayrı-ayrı təcrübəli müəllimlərin zəhməti yüksək qiymətləndirilib. Və bir də diaqnostik qiymətləndirmədən sonra yüksək nəticə əldə edən müəllimlərin hamısının əmək haqqı artırılıb. Müəllim var ki, rayon yerində min manata yaxın əmək haqqı alır. Təbii ki, müəllimin nüfuzunun artması və bu peşəyə dövlət səviyyəsində diqqət göstərilməsi istər-istəməz bu istiqamətə axını son vaxtlar daha da artırır. İndi demək olar ki, gənc oğlanlar da müəllim olmaq və məktəbdə işləməyə çalışırlar. Buna görə də müəllimlik peşəsinin arxasınca gedənlərin sayı son illər bir xeyli çoxalıb. Bütün bunlar hamısı müsbət tendensiyadır.

### Cəmiyyətdə isə heç də müəllimə münasibət birmənalı deyil

Yəni uzun müddət məmləkətimizdə bir çoxları müəllim peşəsinə yuxarıdan aşağı baxıb və hətta bir-birilə məzələnmək üçün aralarında olanlara müəllim də deyiblər. Gör nə günə qalmışıq ki, eşşək Gürşadın oğlu eşşək Əhmədə də müəllim deyirlər. Hətta "Xəzər" TV-də veriliş aparan Fəlakət də müğənnilərə müəllim deyə müraciət eləyir. Axı, müəllimliyi bu qədər gözdən, nüfuzdan salmaq olmaz? Və onu da gözdən, nufuzdan salan cahil, savadsız, nadan insanlardı. Çünki eşşək Gürşadın oğlu eşşək Əhməd kimi adamlara puluna, varına, dövlətinə görə nə vaxta qədər müəllim deyəcəklər, o vaxta qədər də müəllim adına ləkə gələcək.

Bir məsələni də qeyd edək ki, bu gün məktəblərdə mövcud nöqsanları üzə çıxarmaq o qədər də asan deyil. Məktəbə kimi desən gözətçilər buraxır (Təbii ki, direktorların razılığı ilə). Təkcə jurnalistləri məktəbə buraxmırlar. Heç mənim özüm məktəbə gedən də deyiləm. Amma gedən jurnalistlər çox böyük çətinliklə, problemlə üzləşdiklərini bildirirlər. Guya məktəb güc nazirlikləridi, biz hər hansı güc nazirliyinə, onun idarələrinə çox asanlıqla gedirik və suallarımızı verib cavablarımızı da alırıq. Amma hər hansı məktəbə jurnalist çox çətin ki, daxil ola bilsin. Bu da onunla bağlıdır ki, direktorlar istəmirlər ki, jurnalist qəfil məktəbə gəlsin və o nöqsanları görüb ictimailəşdirsin. Hansı ki, "Mətbuat haqqında" Qanunda hər bir jurnalistin ilkin mənbədən informasiya almaq hüququ var. İnanmaq istərdik ki, yeni islahatçı Təhsil nazir Emin Əmrullayev bu şəffaflığı mətbuat üçün qısa zaman kəsiyində yaradacaqdı. Çünki cənab nazirin atdığı addımlar, etdiyi yeniliklər bu inamı bizdə formalaşdırır.

**Müəllimin bizim hər birimizin üzərində əziyyəti çoxdur. Bu əziyyəti kim itirirsə, gec-tez bunun cəzasını görəcək. Ona görə də savadlı, ziyalı, millətini və xalqını sevən müəllimlərə hamı hörmətlə, məhəbbətlə yanaşmalıdır. Çünki bu istiqamətdə ölkəmizdə çox böyük işlər görülür. Biz müəllimi sevəriksə, o peşəni uca tutarıqsa, Allaha and olsun, bu cəmiyyət işığa, nura və haqq-ədalətə doğru daha asanlıqla irəliləyə bilər. Əks təqdirdə müəllimi gözdən və nüfuzdan salmaqla biz cəhalətə və nadanlığa doğru getmiş olarıq. Gəlin, işığa, nura doğru gedək!..**

**Faiq QİSMƏTOĞLU**

---

# Bir çox xəstəlikləri müalicə edən dərman qadağan olundu

**Bu yaxınlarda məlum olub ki, 60 ildən çoxdu rəsmi tibbin görmək istəmədiyi, bir çox xəstəlikləri müalicə edən dərman, apteklərdə qəpiyə satılır.**

Dərmanın adı "ASD"-dir və demək olar ki, bütün xəstəlikləri müalicə edir.

Bu yaxınlarda NKVD -nin arxivlərindən birində Beriyanın Stalinə ünvanladığı məktub tapılıb. Məktubda yazılır ki, - "Professor A. V. Doroqovun kəşf etdiyi tibbi dərman əksər xəstəlikləri tez müalicə edəcək və bunun da nəticəsində xəstələrin sayı azalacaq, tibbi personal ixtisarla üzləşəcək, dərman istesal edən müəssisələrin fəaliyyəti məhdudlaşdırılacaq;

- SSRİ- nin iş qabiliyyəti olan vətəndaşlarının ömrü uzanacaq ki, bu da yaxın 15 -20 il ərzində Pensiya və Yaşayış Fondunun yüklənməsinə səbəb olacaq.

Təklif edirəm ASD F-1, ASD F-2 və ASD F-3 dərman məhsulları baytarlıq sahəsinə keçirilsin..."

Məktubun aşağıdlnda Stalinin imzası ilə " Təsdiq edirəm" yazılıb.

Bu dərman həbləri haqqında:

Əslində bu həblər hələ Orta əsrlərdə təbabətə məlu m idi. Amma kilsələrin kimyagərlərə qarşı amansız davranışları bu dərman vasitəsini yaddan çıxarmışdı. Lakin Aleksey Vladoviç Doroqov kimi alimlər " həyat eleksiri" axtarışlarını heç vaxt dayandırmadılar. Professor əvvəlcə müəyyən etdi ki, XIII- XV əsrlərdə Rusiyada zəngin təbəqənin istifadə etdiyi hansısa ultra- bahalı həblər olub. Həmin həblər qurbağanın dərisindən alınırmış. Maye qarışığı və dad dəyişmək məqsədi ilə bəzi otlardan istifadə edilərirmiş.

Doroqovun bu axtarışlarını "səfehlik" adlandıran SSRİ- nin farmosept cəmiyyəti, "həyat eleksiri"ni əfsanə adlandırırdı. Lakiin professor onlara qarşı gedərək " biologi bomba" sayılan ASD F-1-in əldə olunmasına nail oldu.



Həmin dərmandan az miqdarda istifadə etməklə, hazırda cərrahi əməlyatlarla müalicə olunan bir çox xəstəlikləri sağaltmaq olardı. ASD F-1 dərmanı çox məxfi surətdə Doroqov tərəfindən gizli labaratoriyada hazırlanırdı. Bu dərman barədə yalnız Stalin və Beriya xəbərdar idilər.





Nəticədə antiseptik və müqaviməti gücləndirən, mədə və ümumiyyətlə bütün yaralarını tez sağaldan dərman məhsulu alındı. Bu dərman ASD (antiseptikçeskiy - stimulyator Doroqova) adlandırıldı.

Alınan dərman məhsulu sınaqlardan uğurla çıxsa da, profesdor Doroqova bu unikal tapıntı barədə danışmaq qadağan edildi. Aleksey Vlasoviç SSRİ- nin səhiyyə üzrə o vaxtki Xalq Kommisarı Andrey Tretyakova məktub yazaraq, Moskvanın dəri terapiyası ilə məşğul olan xəstəxanalarından birində ölkənin bütün ərazilərinə göndərilmək üçün minlərlə həkim hazırlanmasını təklif edir. Tretyakov professora rədd cavabı verir və tezliklə prokurorluq ona qarşı təqibə başlayır.

Professora qanunsuz tibbi fəaliyyətlə bağlı ittiham irəli sürülür, başçılıq etdiyi labaratoriya bağlanır və 1957 -ci ildə o, müəmmalı şəkildə qəflətən, guya günün- günorta çağında öz evinin həyətində dəm qazından boğulub ölür.

1959-cu ildə ASD F-1 dərmanı ilə bağlı bütün məlumatları tam məxviləşdirirlər.

SSRİ dağılandan sonra ASD dərmanları apteklərdə satılır. Amma insanlar bu dərmanın müalicəvi əhəmiyyəti barədə heç nə bilmirlər.

Həkimlər demək olar ki, bu dərman barədə məlumatsızdılar. ASD F-1, ASD F-2 və ASD F-3 dərmanları hazırda yalnız baytarlıqda istifadə olunur.

**ASD -in elmə , ən azı psioriaz, vərəm, astma, xərçəng, prostatit, ekzema və sonsuzluq xəstəliklərini müalicə etməsi məlumdur.**

**Ruscadan tərcümə:**
**Rüstəm Hacıyev**

---

# Distant təhsildən heç kim razı deyil

**Məlum olduğu kimi 15 sentyabrdan tədris müəssisələri fəaliyyətə başlayıb. Həm distant, həm də əyani tədris paralel olaraq davam edəcək. Rayonlarımızda onlayn tədris prosesi necə gedir?**



Qəbələ şəhər 3saylı tam orta məktəbinin tarix müəllimi Rəsulova Məleykənin sözlərinə görə, onlayn tədris zamanı zəif internet səbəbindən şagirdlərin yalnız yarısı bu prosesə qoşula bilir.

"Pandemiya təhsil nazirliyini iki seçim arasında seçim etməyə məcbur etdi. Təbii ki, şagirdlərin sağlamlığı daha önəmlidir. Ancaq Təhsil Nazirliyi qeyri standart şəkilde fəaliyyət göstərməyə məcbur oldu . Şagirdlər üçün video-dərslər teledərslər təqdim olundu . Əlbəttə ki, teledərslər adi dərsi əvəz etmir, ancaq onlayn dərslər daha effektivdir, müəllim və şagird interaktiv təmasda olur . Şagirdlərin demək olar ki, yarısı qoşula bilir dərslərə. Bəzilərində internet problemi, bəzilərində kompüterdən istifadə etmək bacarıqlarının aşağı səviyyəli olması dərslərə qoşulmaq üçün problem yaradır. Yaxşı olardı ki, birinci dünya dövlətlərində olduğu kimi bizim ölkədə də internet pulsuz olsun, şagirdlərimiz üçün onlayn dərslərə qoşulmaq imkanı çoxalsın."

Cəlilabad rayon Babalı kənd tam orta məktəbinin fizika müəllimi Ağayev Namiq bildirir ki, müəllimlər öz ciblərinin puluyla internet paket yükləyir. Internet şəbəkəsi isə bir çox regionlara yaddır.

"Tədris ilinin başlaması yenə bizim problemləri üzə çıxarmağa başladı. Distant təhsil söhbətinə son vermək lazımdır. Bu məndə gülüş doğurur.

Onlayn təhsilə tək mən yox, böyük əksəriyyət müəllim həm qoşulmur, həm də qoşula bilmir. Ən doğrusu isə qoşula bilmir cavabıdır. İki nazirlik bu işi razılaşıb həll edə bilərdilər, amma heç birinin vecinə deyil. Çünki təhsil bizdə heç kimin vecinə deyil. Mən hər ay öz mobil nömrəmə 20 manat pul yükləyib internetdən istifadə edirəm. Bu ay isə 20 manatım yoxdur internetdən istifadə etmək üçün. Kəndimizdə olan müəllimlər yalnız həftəsonu internet paketindən istifadə edir. Vayfay hələ bizlərə çox yaddır. Bir sözlə deyim ki, onlayn təhsil yoxdur bölgələrdə. Rəhbərliklər yalandan deyir bizlərdə onlayn təhsil var. Hamısı önə keçib özünü göstərmək üçün hesablanıb və belələri təhsilin düşmənləridir. Təsəvvür edin, ölkə başçısına da yalandan məlumat verirlər ki, onlayn dərs keçmək üçün hər şərait var. Ölkə başçısı bu şəraitsizliyi bilmir. Bilsə bu cür problem olmazdı. Hər şeydə yalan ola bilər amma təhsildə yalan olmaz.

**Şagirdlər qoşula bilmir. Qoşulmaq üçün şagirdin telefonu ya kompüteri olmalıdır. Bizdə şagirdlərin 11-ci sinifdə, ya da məktəbi bitirdikdən sonra telefonu olur. Müəllimi internetə pul tapa bilməyən şagird necə onlayn dərs keçsin ki? Teledərslərə baxanlar haqqında heç nə deyə bilmərəm. Bu haldan heç kim razı deyil."**

**Emin Piri**

---

## ABŞ-dan Türkiyə və Yunanıstana çağırış



**ABŞ Xarici İşlər naziri Pompeo Şərqi Ağdənizdəki yaranan gərginliklə bağlı açıqlama verib:**

"Şərqi Ağdənizdə davam edən gərginliklə bağlı bunu deyə bilərəm ki, təzyiq aşağı salınmalı və bölgədə hərbçilərin ayaq izlərinə az rast gəlinməlidir".

O, bu fikirləri "France İnter" radiosundakı çıxışda səsləndirib.

Pompeo tərəflərin fikir ayrılıqlarını beynəlxalq hüquqlar çərçivəsində həll etmələrinin labüd olduğunu və hərbi gücdən istifadə olunmamasını dilə gətirib.

Qeyd edək ki, Almaniyanın baş naziri Merkel isə yunan həmkarı Miçotakis ilə görüşərək Yunanıstana dəstəkmesajı verib. Miçotakis isə Oruç Rəis geri çəkilməsə, görüşlərə davam etməyəcəyini bildirib.

**Eminquey**

---

## Liberman: İsrail vurulur, Netanyahu isə bayram edir



**Netanyahu Vaşinqtonda bayram edir, ancaq fələstinli cihadçılar Aşdod və Aşelondakı yaşayış məntəqələrinə raket zərbəsi endirib.**

**Bu açıqlama ilə İsrailin tanınmış siyasi xadimi Aviqdor Liberman çıxış edib.**

**Qeyd edək ki, ötən gün İsrail, BƏƏ və Bəhreyn rəsmiləri Ağ Evdə ilkin normallaşma ilə bağlı tarixi müqavilə imzalayıblar.**

**MEHRİBAN**

---

## Yaponiya parlamenti Yoşihide Suqanı baş nazir vəzifəsinə təsdiqlədi



**Yaponiyanın hakim Liberal Demokrat Partiyasının yeni sədri Yoşihide Suqa ölkənin baş naziri vəzifəsində təsdiq edilib.**

Onun namizədliyi parlamentin hökumət başçısı seçkilərində son söz sahibi olan aşağı palatasındakı deputatların əksəriyyəti tərəfindən dəstəklənib. Səsvermə qanunverici orqanın veb saytında canlı yayımlanıb. Suqa yaxın saatlarda öz kabinetinin tərkibini elan etməlidir.

Qeyd edək ki, eks-Baş Nazir Şinzo Abenin kiçik qardaşı və Yaponiyanın keçmiş Xarici İşlər nazirinin müavini 61 yaşlı Nobuo Kişi ölkənin Müdafiə naziri təyin olunub.

**MEHRİBAN**

---

# Azərbaycan gənclərinin təklifləri BMT sənədində əksini tapacaq

**Azərbaycan Gənclər Fondu və BMT-nin Azərbaycandakı nümayəndəliyi BMT75 təşəbbüsü çərçivəsində təhsil mövzusuna həsr olunmuş dialoq təşkil edib.**

Fonddan bildirilib ki, onlayn tədbirdə iştirak edən 40-dan çox fəal gənc, o cümlədən fiziki məhdudiyyətli şəxslər, pandemiya zamanı təhsil sahəsində üzləşdikləri çətinliklər və onların həlli yolları haqqında müzakirə aparıblar.

İştirakçılar təhsilin hər bir gənc üçün əlçatımlılığı, bu sahədə texnoloji baza və təchizatın təkmilləşdirilməsi, hər kəs üçün bərabər imkanların yaradılması, habelə fiziki məhdudiyyətli gənclər üçün məşğulluq imkanlarının artırılmasının vacibliyini vurğulayıb, yerli və qlobal səviyyədə görülməli işlərə dair təkliflərini veriblər.

Qeyd edək ki, bu dialoqlar zamanı səslənən fikir və təkliflər BMT 75 prosesinin hədəflərindən biri olan "Baxış 2045" (Vision 2045) qlobal sənədinin hazırlanmasına töhfə olacaqdır.

Bu görüşlərlə yanaşı, BMT75 çərçivəsində başlanmış qlobal sorğuda da iştirak edərək, hər kəs gələcəyə dair öz rəy və təkliflərini bildirə bilər: https://un75.online/?lang=aze.



*Zabil BAYRAMLI,*
*tarix elmləri doktoru,*
*professor*

# Maraqlı bir insanın ömür yolu

**Qədim və zəngin tarixə malik Qarabağ əski çağlardan bəri xalqımızın əsas mədəniyyət mərkəzlərindəndir. Yüz illər boyunca siyasi və mədəni proseslərin cərəyan etdiyi Qarabağın mərkəzi Şuşa şəhəri də salındığı ilk günlərdən mədəniyyətimizin beşiyi olmuşdur. Şuşa XIII- XIX əsrlərdə olduğu kimi XX yüzildə də Azərbaycanın siyasi həyatında mühüm rol oynamış, erməni təcavüzünə qarşı əsas mübarizə mərkəzlərindən birinə çevrilmişdir. Eyni zamanda Şuşada çoxlu sayda mədəniyyət və siyasi xadimlər yetişmişdir. Bunlara misal olaraq Əhməd bəy Ağaoğlu, Üzeyir Hacıbəyov, Bülbül və digərlərini misal göstərmək mümkündür.**

Bu ənənə qırılmamış və hazırda da davam etməkdədir.Bu gün məcburi köçkünlük həyatı yaşamaq məcburiyyətində qalan şuşalılar ata-babalarının qoyub-getdiyi ənənəyə sadiq qalaraq xalqımıza mədəniyyətimizin bütün sahələrində öz töhfələrini bəxş edirlər. Belə elm adamlarından biri Yunis Rza oğlu Hüseynov da Şuşada anadan olmuş və ilk təhsilini də bu şəhərdə almışdır. Təhsilini davam etdirməklə yanaşı, ”Kolxoz bayrağı” qəzeti redaksiyasında mürəttib vəzifəsində işləmişdir. O, 1941-1945-ci illər Böyük Vətən müharibəsi və ondan sonrakı çətinliklər dövründə gələcəyə olan inamımı itirməmiş, hərtərəfli təhsil alaraq xalqına xidmət etməyi qarşısına məqsəd qoymuşdu. Bu məqsədlə də 1960-cı ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuş və ali təhsilini başa çatdırıb, yenidən öz doğma şəhərinə qayıtmışdır. Şuşada pedaqoji fəaliyyətə başlayan gənc Yunis müəllim 4 nömrəli orta məktəbdə müəllim, təlim-tərbiyə işləri üzrə müavin, daha sonra rayon təhsil şöbəsində baş müfəttiş və şəhər 3 nömrəli orta internat məktəbdə direktor vəzifələrində çalışmışdır. Hamının sevgisini qazanan bu işgüzar pedaqoqun dərs dediyi şagirdlər hal-hazırda müxtəlif sahələrdə - müəllim, həkim, hüquqşünas, iqtisadçı, mühəndis və digər sahələrdə şərəflə fəaliyyət göstərirlər.

1970-ci ildə Azərbaycanın milli tarixinin təbliği sahəsində onun pedaqoji təcrübəsi Şuşa rayon Maarif Şöbəsinin metodkabineti tərəfindən öyrənilib yayılmış və bunun üçün metodiki vəsait hazırlanıb nəşr olunmuş və rayonun məktəblərinə göndərilmişdir. Həmçinin o, 1988-ci ildə ”Metodist müəllim”, 1991-ci ildə ”Azərbaycan Respublikasının xalq təhsil əlaçısı”, 1994-cü ildə ”Ali dərəcəli müəllim” adlarına layiq görülmüşdür.

Yunis Hüseynov 1975-cü ildə ”Əmək veteranı” və 2007-ci ildə ”Tərəqqi” medalları ilə təltif edilmişdir. O, məlum hadisələrlə əlaqədar vətənini tərk edərək Bakı şəhərinə gəlmiş və öz əmək fəaliyyətini 2011-ci ilə qədər burda fəaliyyət göstərən Şuşa şəhər 1 nömrəli tam orta məktəbində təlim-tərbiyə işləri üzrə direktor müavini və müəllim işləmiş, Bakıda məskunlaşan məcburi köçkün şuşalıların övladlarına yenidən dərs demişdir. Doğma şəhərinin həsrəti ilə yaşasa da, bütün çətinliklərə baxmayaraq, həmyerlilərinə mənəvi kömək göstərmişdir.

O, Bakı Baş Təhsil Şöbəsi tərəfindən təşkil olunan pedaqoji mühazirə və açıq dərslər müsabiqələrində ikinci dərəcəli diplomlara layiq görülmüş, 2006-cı ildə isə ”XXI əsrin tanınmış maarifçisi” Beynəlxalq diplomu ilə təltif olunmuşdur.

Yunis Hüseynov 2009-cu ildə Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Dissertasiya Şurasında ”QARABAĞNAMƏLƏR” AZƏRBAYCAN TARİXİNİ ÖYRƏNMƏK ÜÇÜN MƏNBƏDİR” mövzusunda dissertasiya müdafiə etmiş, tarix üzrə fəlsəfə doktoru adı almışdır. Onun elmi fəaliyyətinin başlıca istiqamətləri Qarabağ xanlığının yaranması, siyasi, iqtisadi, mədəni, sosial həyatını tədqiq etmək və araşdırmaqdan ibarətdir. Müstəqilliyimizin əldə olunmasından sonra Qarabağ xanlığının milli tarixində mövcud olan qara ləkələrin aradan qaldırılması istiqamətində o, müxtəlif elmi-akademik araşdırmalar həyata keçirmişdir. Alimin elmi fəaliyyəti Azərbaycan ərazilərinə, o cümlədən də, Qarabağa ermənilərin Rusiya imperiyası tərəfindən gətirilib məskunlaşdırılmaları problemlərini siyasi cəhətdən təhlil etmək və onun sosial nəticələrini araşdırmaqdan ibarətdir. Y.Hüseynov Qarabağ tarixində ermənilərin yad element olduqlarını qaynaq və mənbələr əsasında araşdırıb təhlil etmiş və Qarabağın keçmiş tarixinin tam şəkildə öyrənilməsində çox böyük uğurlar əldə etmişdir .

Altı kitabın və çoxlu sayda elmi-publisistik məqalənin müəllifi olan Yunis Hüseynov bütün yazılarında ermənilərin dağıdıcı fəaliyyətlərini, onların vətənsiz olduqlarını tarixi dəlillərlə sübuta yetirməyə çalışmışdır. Onun araşdırmaları istər Qarabağ tarixi, istərsə də Azərbaycan tarixi üçün böyük əhəmiyyət kəsb edir.

**Haqqında söhbət açdığımız nüfuzlu ziyalımız Yunis Hüseynovun bu gün 85 yaşı tamam olur. Allahdan istəyimiz budur ki, 90 yaşını doğma şəhərimiz Şuşada qeyd edək.**

# PANDEMİYAYA QALİB GƏLƏN MUSİQİ

## O, tamaşaçıları ayağa qaldırdı

**Azərbaycanın gənc pianoçuları arasında özünü təsdiq etmiş və təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarında da tamaşaçı, dinləyici auditoriyası toplamış Nərmin Nəcəfli özünün hər yeni uğuru ilə ailəsini, doğmasını deyil, onu izləyən hər kəsi sevindirir. Bu mənada mən Nərmin Nəcəflinin barmaqlarının və ürəyinin cazibəsi olan ifasını ”Ədalət”in oxucularına sözlə çatdırmağa hər zaman maraqlı olmuşam. Burada da iki səbəb xüsusilə önəmlidir. Onun birincisi Nərminin istedadı, ikincisi isə Nərminin aid olduğu ailəni yaxından tanımağımdı. Belə demək olar ki, mən də Nərmin Nəcəflinin aid olduğu ailə üzvləri arasındakı fanatlarından biriyəm.**

Bu günlərdə Nərmin Nəcəfli Almaniyadan, bir az da dəqiq ifadə desəm, Berlindən qayıdıb. Təbii ki, bu xəbər mənim üçün gözlənilməz oldu. Çünki dünyada tüğyan edən COVİD-10-la əlaqədar olaraq kütləvi tədbirlər demək olar ki, dayandırılıb, adamların hərəkəti məhdudlaşdırılıb. Bax, belə bir vaxtda Berlində məşhur Kulrutstuftnug Schloss Brits Mədəniyyət Mərkəzində Nərminin konserti təşkil olundu. Sentyabr ayının ilk günündə konsertin təşkilatçıları, yəni Berlin Brits sarayının mədəniyyət fondunun nümayəndələri Nərminlə əlaqə saxlayıb bildirdilər ki, sentyabr ayının 12-ə onun konserti planlaşdırılıb. Və onu da əlavə etdilər ki, pandemiya ilə əlaqədar olar konsert məhdud tamaşaçı kütləsi üçün nəzərdə turulub, biletlər də məhdud sayda satılacaq.



Mənimlə konsert təəssüratını bölüşən Nərmin Nəcəfli bildirdi ki, cəmi bir-iki gün reklam olan bu konsert mənim üçün həqiqətən gözlənilməz idi. Ona görə gözlənilməz idi ki, bütün biletlər satılmışdı və konsertin də fasiləsiz keçiriləcəyi bəyan edilmişdi. 90 dəqiqə tamaşaçı qarşısında çıxış etmək həm böyük həyəcan, həm də böyük uğurdu.

Bəli, Nərminin konserti Berlin Brits klubunda alqışlarla yekunlaşdı. Konsertdə onun səsləndirdiyi musiqilər hər kəsin ürəyini oxşadı. Özü də bu, Almaniyada, indiki pandemiya zamanında təşkil olunan ilk qapalı şəraitdə keçirilən konsert idi. Bu konsertdə ölkəmizin Almaniyadakı təmsilçiləri də Nərmini alqışlayanlar arasında idilər.

Oxucuların diqətinə çatdırım ki, Nərmin 1996-cı ilin noyabr ayının 17-də Bakı şəhərində doğulub. O, hələlik Almaniyanın Honnever Musiqi, Dram və Media Universitetinin II kurs tələbəsidir. Yəni Nərmin burada professor Bernd Goetzkenin sinfində magistr təhsili alır. Onu da əlavə edək ki, Nərmin Prezident təqaüdçüsüdür. Gənclər üçün prezident mükafatının, gənclər mükafatının laureatı və beynəlxalq müsabiqələrin qalibidir. Onun adı Azərbaycanın gənc istedadlarının ”Qızıl” kitabına yazılıb. dünyanın böyük paytaxtlarında - Moskvada, Parisdə, Vilnusda, Riqada, Berlində, Polşada, Estoniyada, İtaliyada, Böyük Britaniyada, ABŞ-da, Tbilisdə, Finlandiyada, bir sözlə, öz musiqisi ilə dünyanın bir çox ölkələrində Azərbaycan musiqisini, eləcə də dünya bəstəkarlarının əsərlərini ustalıqla səsləndirmişdi.

**Bu gün də onun ifası hər kəs üçün sevilən və arzu ediləndi. Elə Berlindəki son konserti də bunu bir daha təsdiq etdi. O, öz ifası ilə dinləyicilərini, musiqisevərləri pandemiya xofundan çıxara bildi. Yəni Nərmin Nəcəflinin ifası, səsləndirdiyi musiqi pandemiyaya qalib gəldi.**

**Əbülfət MƏDƏTOĞLU**

## *Veneranın atmosferində həyat əlaməti tapıldı*



**Günəşdən uzaqlığına görə ikinci planet olan Venerada fosfin maddəsi tapılıb. Sözügedən tapıntı alimlər tərəfindən planetdə canlı orqanizmlərin yaşamasının mümkün göstəricisi kimi qəbul edilib.**

Fosfin maddəsi planetin atmosferində tapılıb. Bu tapıntı Venerada ən azı əvvəllər məlum olmayan mürəkkəb kimyəvi proseslərin varlığından xəbər verib. Sözügedən molekul Çilidəki ALMA rəsədxanası və Havay adalarındakı Ceyms Klark Maksvell teleskopu vasitəsilə aşkar edilib.

## *Avropa Komissiyası bu sahəyə 8 milyard avro ayırır*



**Avropa Komissiyası rəqəmsal müstəqilliyə nail olmaq üçün Avropa Birliyində super kompüterlərin istehsalına 8 milyard avro investisiya yatırmaq niyyətindədir.**

Axar.az xəbər verir ki, bunu Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen Avropa parlamentində çıxışı zamanı deyib. Onun sözlərinə görə, Avropa Birliyi texnologiya cəhətdən çox yüksəkdə olmalıdır, lakin bunun üçün investisiya lazımdır.

"Avropada texnologiyaya investisiya yatırmaq üçün bundan yaxşı məqam olmayıb. Büdcənin 20%-nin rəqəmsal bazarın inkişafına ayrılacağını planlaşdırırıq", - Ursula fon der Leyen bildirib.

**MEHRİBAN**



*Arzu Hüseyn*

### Qorxma

Qorxma, daha bir kimsəni sevmirəm,
İsidən yox fəsillərin qışında.
Qorxma, daha gücüm də yox gəzdirəm,
Başqasını ürəyimin başında.

Qorxma, daha telefonum hey susur,
Gizlətmirəm zənglərimi birindən.
Qorxma, qəlbim həsrətinə uduzur,
Bağlanmıram adamlara dərindən.

Qorxma, indi soluxubdur bənizim,
Kim tanıyar məni belə görəndə?
Qorxma, gülüm, gecə kimi səssizəm,
Gülüşümü itirmişəm dünəndə.

Qorxma, hələ bəriyədir yollarım,
Səfərimi uzaqlara salmıram.
Qorxma, hələ sağalmayıb qollarım,
Özgəsini ağuşuma almıram.

Qorxma, gözüm açılmır ki, gün görəm,
Göz yaşımı şeirlərə sıxıram.
Bax beləcə hər gün biraz ölürəm,
Hər gün biraz həyatından çıxıram...

### Sevməsən də, unutma

Yoxdur daha baxışında doğmalıq,
Xəyanətlər sildi səndə izimi.
Adam kimi sevgili də olmadıq,
Adam kimi nə olduq ki..,
düzdümü?

Unutdunmu qoxladığın telləri?
Darıxdımı gözlərində uzaqlar?

Gəlirsənsə, yarı yoldan dön geri,
Qollarımda bir gecəlik qonaq var!

Boğazıma dirəndikcə yalanlar,
Qabığımdan soyuluram, çıxıram.
Yastığımda uyuyurlar ilanlar,
Yastığıma baş qoymağa qorxuram.

Nə qalıbdı dünənindən əlində?
Xatirələr qan gölüdür, uzaq dur!
Bilirəm ki..,
bilirəm ki, sənin də
Yatağında elə həmin sazaqdır.

Mən vüsalı gətirmirəm dilə də,
Demirəm ki, qaranlıqda çıraq var.
Qarşılaşsaq, ürəyimdə hələ də,
Üşüməyə ikimizə otaq var...

### Bundan sonra alınmaz

İçkilərdə ovudursan qəlbini,
Duman-duman siqaretdə itirsən.
Min bir dəfə qayıdırsan yanıma,
Min bir dəfə üz çevirib gedirsən.

Yollar daha əzbərləyib izini,
Telefonun zənglərimə qapalı.
Hələ məğrur aparırsan özünü,
Hələ səndə ürəyimin açarı.

Məktubların giley dolu fikirlər,
Məktubların ürəyimin qisası.
Aramızda məsafələr tikilər,
Xəbərimiz olmaz belə, qadası.

Heyrətimnən yıxılmısan heçliyə,
Ümüdümün qanadı yox uçmağa.
Ürəyində küçə yoxdur keçməyə,
Ürəyinin qapısı yox açmağa.

Bizim üçün bitib daha kəlmələr,
Hisslərimiz min vüsalla ovunmaz.
Çox çalışdıq, bu qədəri bəs edər,
Bundan sonra alınmaz e, alınmaz.

### Nikotin

Bütün əvvəllərin yolu sonadır,
Bitəcək həvəsi görüşlərinin.
Ayrılıq azacıq nikotin dadır,
Tərkibi qətrandır öpüşlərinin.

Mən ki, ta əvvəldən ürəyi qırıq,
Axı nə biləsən, hardan biləsən?
Sən vüsal donunda gələn ayrılıq,
İndi həsrətinlə nəfəs-nəfəsəm.

Yığıldı köksümə dərd yumaq-yumaq,
Əsən külək mənəm, yağan qar mənəm.
Axı necə olur həmişə, ancaq,
Bütün səbəblərə günahkar mənəm?

Qürurum ucuzmuş, vüqarın baha,
Böyük duyğuların ruhu kiçilib.
Qorxma, çıxmayacam qarşına daha,
Qorxma, yolsuzluqda qapı açılıb...

Adımı dəli qoy, ya da sərsəri,
Min bir bəhanə tap qınağa, kinə.
Bütün kədərimin yolu sənədi,
Bütün qəzəbinin ünvanı mənəm...

Daha əvvəlki tək gətirmirəm tab,
İndi ahlarıma mücrüdü sinəm.
Hayandan baxsan da, bəllidir cavab,
Bu eşqin uduzan tərəfi mənəm.

### Darıxanların şeiri

Yaddaşının dərd yerində azarsan,
Həsrət olub gözlərində durulsam.
Bircə kəlmə gəl görüşək, yazarsan,
Mənim üçün darıxmaqdan yorulsan.

Nəyə gərək vüqarına sığınmaq?
Bəlkə bir gün sıfırlayaq dünəni?
Uduzursan, uduzursan, ay Axmaq,
Qüruruna uduzursan sən məni.

Qayıtmağa nə cığır, nə yol qalar,
Ayılanda bu qaramat yuxundan.
Aramızda bir görüşlük ümüd var,
Gəl darıxaq adam kimi yaxından.

Daha səbrim qaya deyil, sınama,
Düzəlmərəm bircə dəfə qırılsam.
Bir səbəb tap qayıtmağa yanıma,
Mənim üçün darıxmaqdan yorulsan.

Olmazları aşacayıq güman et,
Qurban olum təkliyinə sarılma.
Mənim üçün darıxmağa davam et,
Mənim üçün darıxmaqdan yorulma.

# ABAY KUNANBAYEVİN "QARA SÖZ"Ü

## (175-illiyi münasibətilə)

**19-20-ci əsr Qazax ədəbiyyatının yaranmasında və inkişafında dövrünün ən görkəmli şəxsiyyətlərindən biri olmuş Abay Kunanbayevin xidmətləri böyükdür.**

İlk təhsilini doğma vətənində alan Abay 9 yaşınada atası onu Semipalatinsk şəhərində yerləşən müsəlman mədrəsəsinə aparır. Bir müddət orada təhsil alan Abay təhsil səviyyəsi ilə razılaşmayaraq özbaşına rus məktəbinə keçir. Atası-Kunenbay Uskenbaev oğlunu özünün varisi kimi görmək istədiyindən onu məktəbdən ayırır və öz yanında idarəetmə işlərini öyrətməyə başlayır. Abayın mürəkkəb məhkəmə işlərinin icrasında daimi iştirakı, məhkəmə icraçılarının bəlağətli şifahi nitqi, ağıl və bacarıq nümayiş etdirməsi, atasının elçisi kimi tez-tez aullara getməsi gələcək şair üçün o qədər də az iş, təcrübə deyildi. Onun qarşısında mürəkkəb bir dünya - qazax cəmiyyətinin müxtəlif təbəqələrinin həyatı, ədalətsizlik və qanunsuzluq, yoxsullar üzərində zəngin zorakılığı bütün çalarları ilə ortaya çıxmış oldu.

Abay qanunsuzluq və patriarxallığın qəddar ənənələri ilə barışmaq istəmədiyindən öz xalqının iqtisadi və mənəvi cəhələtdən çıxma və inkişaf yollarını axtarmağa başladı. Abay maarif, bilik və mədəniyyəti ictimai inkişafın qüdrətli vasitəsi hesab edirdi. Gənc şair müasirlərini dərindən düşündürən şerlər yaradır. Eyni zamanda o, rus mədəniyyətinin öyrənilməsi ilə səylə məşğul olur, tez-tez Semipalatinsk şəhərindəki kütləvi kitabxanaya gedir və çar mütləqiyyətin yerlərdəki siyasətindən narazı olan rus ziyalıları ilə dostluq edir. Semipalatinskdə o, siyasi baxışlarına görə sürgün edilmiş E. P. Mixaelis, S. Qross, N. İ. Dolqopolovla tanış olur. Bu şəxslər yerli mühiti, Asiyanın bu əsrarəngiz diyarını öyrənən əsl maarifçilər idi. Onlar kitabxanalar, oxu zalları açır, kənd və aullarda bilik yayırdılar.

### *Qabaqcıl rus ziyalıları*

***ilə birgə işləmək və dostluq, rus ədəbiyyatı ilə daimi məşğul olması Abayın maarifçilik və demokratik ideyalarının formalaşması və inkişafında mühüm əhəmiyyət kəsb etmişdir. Demokratik inancları və maarifçilik ideyalarının gücünə olan inamı Abayın poeziyasının milliliyi və realizmi ilə izah olunur.***

Abay klassik Şərq poeziyasını bilir və qiymətləndirirdi. Kitablara olan vurğunluğu, təhsilə sonsuz həvəsi Puşkin və Lermontov, Tolstoy və Şedrin, Belinski və Çernışevski kimi şəxsiyyətlərin fikirləri ilə tanış olmasına, onların fikri dünyasına daxil olmağa və tərcümələr etməyə imkan vermişdi. O, XIX əsr rus ədəbiyyatının təmsil janrında öz sözünü demiş Krılovun bəzi təmsillərini, A.S.Puşkinin "Evgeni Onegin" əsərini, M.F.Lermontovun otuza yaxın şeirini qazax dilinə çevirmişdir.

Qazax xalqının azadlığı və inkişafı üçün narahat olan şairin yaradıcılığı getdikcə xalqı arasında sevilib dəyər verilirdi. Bir çox gənc şair və yazıçıların onun əhatəsinə toplanıb, onun fikirlərindən, əsərlərindən örnək alması gələcəkdə Qazax ədəbiyyatının tanınmış şəxsiyyətlərindən olmasına təkan verdi. Şair Kokbay Janatayulı, Arip Tanirbergenov, Aset Naymambetov kimi istedadlı gəncləri öz ətrafında toplayaraq təhsil, mədəniyyət və incəsənəti təbliğ edir, böyük poeziya dünyasına yol açırdı. "poeziya dilin hökmdarıdır...", - deyən Abay, özü poeziyanın hökmdarı idi. Və "yalnız öz atasının, öz xalqının deyil, bütün bəşəriyyətin oğlu" idi.

Məlum olduğu kimi, Abayın sağlığında şeirlərindən yalnız bir neçəsi çap edilmiş və heç bir kitabı nəşr olunmamışdır.

### *Onun əsərlərinin*

qorunub saxlanmasında qazaxların şifahi xalq yaradıcılığı, tarixi-qəhrəmanlıq dastanları, lirik-epik əsərlər, poetik nağıllar, ağızdan-ağıza, nəsildən-nəsilə ötürülən mətnlərin müstəsna rolu olmuşdur. Şairin çox şeir və poemaları əzbərdən öyrənilərək xalq arasında yayılır, Abayın pərəstişkarları isə bunları yazır, sistemləşdirir və surətlərini yayırdılar. Abay poeziyası - bu, sosial-siyasi, satirik, fəlsəfi, təbiət təsviri, məhəbbət lirikası, dostluq, poeziya və elm kimi geniş sahələri əhatə edən bir "dünya"dır. Abay, qazax-Avropa ədəbi əlaqələri tarixində rus, polyak, alman və ingilis klassiklərinin poetik tərcümələri ilə xüsusi bir səhifə yazdı. M. Lermontovun incə lirikası, A.S.Puşkinin şirin dili, İ. Krılovun satirası, Y. Polonski və A. Mitskeviçin zərifliyi Abayın poetik dühasına tabe oldu.



Əlixan Bükeyxanov "Semipalatinsk xəbərləri" qəzetinin 1905-ci il sayında yazırdı: "Qazaxların tarixinin nə erkən, nə də sonrakı dövrlərində mənəvi böyüklüyünə görə onu üstələyən şairin adı məlum deyil".

***Filosof, şair və alovlu vətənpərvər olan Abay öz xalqının qüsurlarını amansızcasına açmışdır. Onu həmvətənlərinin cəhaləti və sosial bəlalar çox ağrıdırdı. "Qazax hələ ayaqları üstündə möhkəm dura bilmir." "Niyə?" - sualı Abayın "Qara söz"ündə bir neçə dəfə səslənir. Və bu gün hər zamankından daha aktualdır. "Ağıl olmasaydı, din nəyə əsaslanardı? Yaxşı və pis Allah tərəfindən yaradılıb, lakin o, onları etmir", - deyə Abay yazır. "Niyə biz keçmiş zamanlarda olduğu kimi, həsəd və xəsislik doluyuq, başqalarında yaxşılıq görmək istəmirik, öz qardaşlarımızın yaxşı tərəflərini görmədən peyğəmbəri başqa ölkələrdə axtarırıq? Abay təəccüblənir: "Niyə bəyin oğlu yoxsullaşanda oğurluqdan utanmır, başqa bəyə qulluq etməyi isə özünə utanc sayır?"***

Şərq (Nizami, Füzuli, Sədi, Firdovsi, Nəvai, İbn Sina və s.) və Qərbin (Şiller, Bayron, Höte, A.Düma-rus ədəbiyyatı vasitəsilə-müəllif) klassik ədəbiyyatını öyrənən Abay özü də bilmədən yeni ədəbiyyat yaratdı, qazax dili sanki yeni bir şəkildə səsləndi, yeni cəhətlər, yeni dərinliklər meydana çıxdı. Abayın əsrləri dərin lirizm, yumşaq yumor, pis niyyətləri üzə çıxarmaq, yaxşılıqları görmək və eşirmək fikirlərilə, 1000 illərdir ucu-bucağı görünməyən yovşan ətirli çöllərə, xalqına sonsuz sevgi ilə doludur. Onun "Masqut", "Fəsillər", "Gözümün qarası", "Eskendir", "Qara gözlər", "Qalın duman", "Qara söz" və digər əsərləri təkcə Qazaxıstanın deyil, həm də dünya ədəbiyyatının klassik əsərləri sırasına daxil oldu. Abay Kunanbayev 200-ə yaxın şeir, 3 poema və 45 nəsr əsərinin müəllifidir.

Abay sanki qaranlığa işıq saçan bir çıraq-maarif, mədəniyyət, inkişaf, işıqlı gələcəyə çağırış idi. "Abay öz fəlsəfi kəlamlarında dürüstlük, həqiqət, ədalət, ağıllılıq, vicdan, şərəf, dostluq və s. mənəvi kateqoriyaları təhlil edir. Abayın fikrincə, vicdan insanın ən dəyərli mənəvi keyfiyyətlərindən biridir və utanc, abır-həya kimi mənəvi anlayışlarla sıx bağlıdır. Abayın mənəvi tərbiyə məsələlərində əsas bələdçiləri vətənpərvərlik, humanizm, beynəlmiləlçilikdir."

*Ömrün əvvəli istidir, sonu isə soyuq,*
*Əvvəli oyun, o biri tərəfi dərdə yaxın.*
*Yaxşı mahnıyı dinləsən kasıb gözüylə,*
*Ömür nur saçar, su kimi sakin.*

Abay öz yaradıcılığında ən yüksək insani keyfiyyərləri, ən yüksək mənəviyyat anlayışını xalqının yaradıcı iş azadlığı və maariflənməsi ilə əlaqələndirir. O, ictimai əməyin xeyirini anlayır və diqqət mərkəzində saxlayırdı. Şairə görə, zəhmət zehni qabiliyyətləri oyadır və təkmilləşdirir, möhkəm maddi vəziyyət təmin edir və müsbət mənəvi keyfiyyətləri formalaşdırır. A. Kunanbayev gənclərin tərbiyəsində ailə tərbiyəsinə xüsusi əhəmiyyət verirdi. Onun fikrincə, ilk və ən əsas tərbiyəçi və müəllimlər valideynlərdir.

### *O, cahillik və qaranlıqla dolu bir vaxtın*

gənclərin inşa edəcəyi parlaq bir dünya ilə əvəz olunacağına inanırdı. Abayın pedaqoji baxışlarının açılmasında T. Tajibayev, K. Yarikbayev, X. Suyunşaliyev, A. Kazıbayev, E. Nildibayev, A. Sembayev, S. Srımbetov və s. Qazaxıstan alimlərinin əsərlərini qeyd etmək lazımdır. Abay müəllimin, ustadın pedaqoji bacarığının əsas əlamətlərinin qətiyyət, yüksək pedaqoji mədəniyyət, ağıl, mehribanlıq, pedaqoji istedad, xoş məramlılıq olduğuna inanırdı. Müəllim, tərbiyəçi Abayın fikrincə, insana təsir edən bütün amillərdən-ailə, mühit, ünsiyyətdən ağıl və bacarıqla istifadə etməlidir:

*Ən böyük sevincimiz uşaqlardır, uşaqlar,*
*Bildim ki, oxumaqla olacaqlar bəxtiyar.*

*Göndərdim mədrəsəyə, tapsınlar orda şöhrət,*
*Qazansın el içində onlar biliklə hörmət.*

"Elmsiz nə bu dünyada, nə o dünyada xeyir yoxdu", "Ağlına görə şöhrət qazanmış kəndli, başına xoşbəxtlik tacı qoyulmuş çardan yüksəkdi", "Dünyanı bilik idarə edir" kimi fikirlər Abay yaradıcılığında ən əsas mövqedə dayanır. Abay maarifçi fikirlərilə Qazağıstanda pedaqogikanın inkişafına böyük təkan vermişdir. O, elmin xəlqiliyinə xüsusi önəm verirdi. Abayın fikrincə elm demokratik bir xüsusiyyətə sahib, hamı üçün eyni və hər kəs tərəfindən qəbul ediləbilən olmalıdır. Böyük şair bir çox görkəmli pedaqoqların da dediyi kimi, insanın xarici görkəminə deyil, müdrikliyinə, dərrakəsinə diqqət yetirilmədir fikrini xalq kütlələrinə çatdırmağa çalışırdı.

### *"Qara söz" onun inancı,*

kəşfləri, məyusluqları, ümumiləşdirmələri və ümumiyyətlə həyatının, mühiti və zamanın hökmüdür. "Qara söz"ün strukturu, janr xüsusiyyətləri, oxucuya şəxsi müraciəti, ayrı-ayrı "söz" (fəsil) kontekstində seçilmiş konkret mövzuya müraciəti dünya ədəbiyyatı və fəlsəfəsinin mühüm əsərlərindən birini xatırladır. Bu, Böyük Çölün dahi oğlu Abay qədər ömür sürmüş fransız yazıçısı və İntibah dövrünün filosofu olan Mişel Montenyenin (1533-1592), "Təcrübələr" əsəridir.

Mişel Montenyenin məşhur "Təcrübələr" əsərinin girişi ilə böyük şair Abay Kunanbayevin "Qara söz"lərinin "Giriş"i sanki eynilik təşkil edir: "... Bu, səmimi kitabdır, oxucu. O, sənə lap əvvəldən xəbər verir ki, ailə və şəxsi məqsədlərdən başqa, qarşıma heç bir məqsəd qoymamışam. Mən nə sənin xeyirin, nə də öz şöhrətim haqqında heç düşünməmişəm belə. Mənim gücüm bu tapşırıq üçün kifayət deyil... Beləliklə, kitabımın məzmunu mənəm, bu isə heç də sənin asudə vaxtını belə yüngül və əhəmiyyətsiz bir şeyə verməyiniz üçün səbəb deyil. Əlvida!.."

"Yaxşı və ya pis yaşadım, amma çox işlər görüldü: mübarizədə və çəkişmələrdə, məhkəmələrdə və mübahisələrdə, əzab və narahatlıq içində ahıl yaşa çatdım, gücdən düşərək və hər şeydən doyaraq əməllərimin acizliyini və boşluğunu kəşf etdim, varlığımın alçaldıcı xüsusiyyətinə əmin oldum. İndi nə ilə məşğul olum, həyatımın qalan hissəsini necə yaşayım? Sualımın cavabını tapa bilməməyim məni çox narahat edir...

... Xalqı idarə edim? Xeyr, xalq idarəolunmazdır. Qoy, bu yükü boynuna götürən sağalmaz xəstəliyə tutulmaq istəyən biri və ya ürəyi soyumamış bir gənc olsun. Allahım, məni bu ağır yükdən qoru...

**... Nəhayət qərar verdim: kağız və mürəkkəb bundan sonra təsəllim olacaq, düşüncələrimi yazacağam. Hər kim onların içində özünə lazımlı sözü tapsa, qoy yazsın və ya yadda saxlasın. Sözlərim insanlara lazım olmayacaqsa, mənimlə də qalacaqlar. İndi başqa heç bir narahatlığım yoxdur",- deyə Abay "Qara söz"lərin əvvəlində yazır.**

**Göyərçin Abidqızı**

# Yazılmış mövzularda yazılmamış sözlər

**Emin Piri müstəqillik dövrü poeziyamızda özünəməxsus yazı üslubunu formalaşdıran, ictimai-siyasi, sosial-mənəvi həyatımızda cərəyan edən hadisələrə öz baxış bucağından nəzər salmağa çalışan ən gənc nəslin nümayəndələrindəndir.**

Tənqidçi Vaqif Yusiflinin Emin Piri haqqında yazdığı ”Yeni səs, yeni nəfəs” məqaləsi bu baxımdan şairin fərdi yaradıcılığının heç kimə bənzəmədiyini, müstəqil düşüncə və təxəyülün vəhdətindən meydana gəldiyini söyləməyə əsas verir. V. Yusifli yazır:

**”Dünyada şairlər üçün yazılmamış mövzular qalmayıb daha. Amma ən işlək, min dəfə müraciət olunan mövzularda da təzə söz demək mümkündür. Emin Pirinin ənənəvi mövzularda təzə söz deməyə can atması və əksər hallarda istəyinə can atması onun poetik istedadını nümayiş etdirir.”**

### *Deyilən sözlərin həqiqiliyinə*

bir daha şahid olmaq üçün şairin ”Uşaqlıq illəri asan keçməyib” şeirinə nəzər salaq.

Uşaqlıq xatirələrinə həsr olunmuş çoxsaylı digər şeirlərdən fərqli olaraq burada bir sıra acı yaşantılar, taleyin sərt və dözülməz oyunlarına boyun əyməyə məcbur olan, kasıb uşaqlarının keçirdiyi sarsıdıcı həyat səhnələri ümumiləşdirilmişdir.

Şeirdə imkansız və varlı uşaqların fərqli münasibət , (”Hindus olmasaq da, atamızın cibinə görə bölmüşdülər bizi kastalara”) bir sıra maddi çətinliklərin poetik lövhələrlə canlandırılmasının şahidi oluruq. Psixologiya doktoru Abdullayeva Şəfahət ”Kiçik yaşlı məktəblilərin həmyaşıdları ilə qarşılıqlı münasibətlərinin emosional xüsusiyyətləri” adlı elmi işində yazır:

”Səliqəsiz, pinti və kasıb geyim şagirdlərin həmyaşıdları ilə qarşılıqlı münasibətlərinə mənfi təsir edir. Bu səbəbləri aradan qaldırmaq üçün səliqəli görünüşə malik olmaq istiqamətində xüsusi iş aparılmalı və məktəblərdə ümumi forma geyinməyi tətbiq etmək lazımdır.”

Bu cəhətdən şeirdə təsvir olunan lirik qəhrəmanın keçirdiyi iztirabları - özü ilə bərabər ayağının da böyüyərək ayaqqabısını cırması və onun



bunu istəməməsi, məktəb bufetinin kasıblar üçün sərhəddin tikanlı məftilləri kimi keçilməz olması, oyuncaq üzünə həsrət qalaraq uşaqsevər tanrını günahlandırması və s. dəqiq müşahidənin, həssas düçüncənin məhsullarıdır.

”Dünyanın ən təmiz yalanı” şeiri öz yeni bədii xüsusiyyətləri və orijinallığı ilə diqqəti cəlb edir. Şair ictimai münasibətdəki çatışmazlıqları, nöqsanları, yalanları əks etdirmək üçün saflıq etalonu olan qarı obrazlı şəkildə təqdim edir.

Şeirdə uşaq atasından əlcək istəyir, imkansız ata isə özünü sındırmır ”daha yeddi yaşın var, böyük kişisən heç kişi də əlcək taxar?!” - deyərək oğlunu fikirlrindən daşındırır.

Şair atanın bu yalanına görə qarı təqsirləndirir. Çünki o yağmasaydı, ata da belə yalan uydurmazdı. Şeir mühiti real və təbii şəkildə əks etdirir: oxucular belə bir qənaətə gəlirlər ki, düzlüyün, ədalətin pozulduğu cəmiyyətdə saflığı qoruyub saxlamaq çox ağırdır, necə ki, bu işlərə görə bütün günahlar ləkəsiz qarın boynuna qoyulur. Atalar demişkən, ağ qarı saf torpaq da yaralar.

Hər şey öz vaxtında gözəldir və şair də belə bir zamanda yağan qarı daha gərəkli sayaraq deyir:

***Qar istəyir uşaqlar***
***Tanksız***
***Yalansız***
***əlcəkli qar***
***yağırsansa belə yağ, qar!***

”Mələklərə atılan mərmilər” Qarabağ savaşını yada salır. Qadın və uşaqlara atılan mərmilərdən məlum olur ki, düşmənlər bu savaşda dünyanın ən dəhşətli qətliamını törətmişdilər. Doğrudur, şair konkret olaraq müharibənin məkanəni dəqiq şəkildə göstərməsə də, şeirdəki hadisələrin gedişi ünvanı dəqiqləşdirir. Emin Piri sözlə deyilməyən sözlər vasitəsilə soyqırım faktlarını məharətlə açıqlayır:

***şəhər bombalanarkən***
***itirmişdi***
***altıaylıq körpəsini***
***qoparmışdı***
***əllərindən mərmilər***
***bir qolu balasında***
***biri özündə qalmışdı ananın...***

Lakin ana ümidini kəsmir, bala itgisinin dözülməzliyindən öz itmiş qolunu xatırlaması arxa plana keçir. Ana on altı ildir ki, ”altıaylıq körpəsini” axtarır.

Uşağın yaşıdları böyümüşdür, lakin ana oğlunu körpələr arasında arayır. Bu isə dərdlərimizin heç vaxt unudulmadığına, üstündən uzun dövr keçsə də, ananın haqlı olaraq bu zamanlardan xəbərsiz olması oxuculara bir nümunə kimi təqdim olunur.

Burada ən çox diqqəti çəkən məqamlardan biri də budur ki, Emin Piri bir neçə misrada yüksək sənətkarlıqla Azərbaycanın ağır dərdlərini bədiiləşdirmiş, ananın kəsilmiş qolları ilə birgə parça-parça məhv olmuş uşağı xatırlayarkən ölkəmizin iyirmi faiz işğala və vandalizmə məruz qalmış torpağını xatırlamaya bilmirsən:

***on altı il keçsə də***
***ana balasını axtarırdı***
***altı aylıq körpələr arasında.***

### *Emin Pirinin müharibəyə həsr olunmuş şeirlərindən*

biri də ”Ayağım özümdən qeyrətli çıxdı”dır. Əsərin qəhrəmanı müharibədə ayağının birini itirir. Bu müharibə üçün adi bir hadisədir. Lakin şair bu epizodu ictimailəşdirə bilmişdir. Əvvəla, lirik qəhrəman itirmiş ayağını əlinə alır, sevgilisi yadına düşür. Müəllif belə bir bədii sual işlədir: ”Ona gül aparan əllər bu gün nə aparacaqdır?!” Fikir burada yekunlaşsa da oxucunun xəyalında bitmir: onu sevgilisinin şikəst vəziyyətdə qəbul edib etməyəcəyi narahat edir.

Özünü Vətən yolunda oda-alova ataraq igidliklər göstərmiş qəhrəman belə bir vəziyyətdə də cəbhədən qayıtmağı özünə ar bilir, ”əlini başına, dizinə çırpır”:

***O qaldı cəbhədə,***
***mənsə qayıtdım***
***ayağım özümdən qeyrətli çıxdı.***

Şeirdəki aşağıdakı misralar da diqqəti cəlb edir:

***cəbhədə qalan sağ ayağının***
***təqaüdünü də***
***sol ayağı alıb xərcləyir!***

**Emin Piri obrazlı şəkildə sağ ayaqla sol ayağı qarşılaşdırmış, insanların müharibəyə olan müxtəlif baxışlarını açıqlaya bilmişdir. Adətən həyatın bütün sahələrində, ö cümlədən də müharibələrdə əsl insanlar həmişə xalq mənafeyini şəxsi mənafedən üstün tutmuşlar. Bu balans pozulanda onlar cılızlaşır ki, şairi də düşündürən və kədərləndirəb bu tipli problemlərdir. O, müharibədən öz şəxsi maraqları üçün istifadə edən adamları cəbhədən qayıtmış ”sol ayaqla” müqayisə edir. Əsl vətənpərvərləri isə cəbhədə məhv olmuş ”sağ ayağa” bənzədir.**

**Famil Mədət**

# Həmyerlimizin uğuru

***Həmyerlimiz Rüfət Həsənov Sarayevoda - Foto-Video Kinofestivalında ən yaxşı rejissor hesab edilmişdir***

**Cənub-şərqi Avropanın ən böyük festivallarından biri 26-cı dəfə keçirilən Sarayevo kinofestivalı başa çatmışdır.**

Onun əsas prizi - “Sarayevonun ürəyi” mükafatı uğrunda dörd: bədii, sənədli, qısametrajlı və tələbə müsabiqə proqramlarında təqdim olunan 49 film mübarizə aparırdı. Rüfət Həsənovun “Debüt” kinostudiyası tərəfindən çəkilmiş “İç ada” filmi Sarayevo kinofestivalının əsas müsabiqəsində iştirak etmək üçün seçilmiş ilk tammetrajlı Azərbaycan bədii filmi olmuşdur. O, bədii festival proqramında ən yaxşı rejissor işinə görə “Sarayevonun ürəyi” mükafatına layiq görülmüşdür.

Xatırladaq ki, avqustun 14-də mədəniyyət naziri vəzifəsini müvəqqəti icra edən mədəniyyət nazirinin birinci müavini Anar Kərimov Rüfət Rauf oğlu Həsənovun mədəniyyət nazirliyi kinematoqrafiya şöbəsinin rəisi təyin edilməsi haqqında əmrə qol çəkmişdir.

Qeyd edək ki, 100 min nəfərdən çox auditoriyası olan Sarayevo kinofestivalı Avropada ən əhəmiyyətli kinofestivallardan biridir.



Bədii müsabiqənin jürisinə fransız rejissoru, ssenariçi və aktyor, “Oskar” mükafatçısı Mişel Xazanoviçuk rəhbərlik etmişdir. Jürinin tərkibinə həmçinin bədii rəhbər Berlinale Karlo Çatrian, aktrisa Yadranka Lokiç, serb rejissoru Srdan Qoluboviç və festivalın direktoru Morelia Andrea Stavenxagen daxil idi.

“İç adası” tammetrajlı filmi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi ilə çəkilmişdir və “Azərbaycanfilm” Dövlət Kinostudiyasının, “Debüt”, “Arizonfilm” (Fransa), “Koyot Sinema” kinostudiyalarının, CNC Fransız milli kinematoqrafiya və animasiya mərkəzinin yardımı ilə “Mandarin” agentliyinin, Baku Media Centerin və İTV-nin birgə istehsalıdır.

Filmin baş qəhrəmanı dünyanın tanınmış şahmat qroyssmesterlərindən biri Seymur Tahirbəyov ən vacib oyunundan bir neçə həftə əvvəl karyerasında özünü yenidən kəşf etmək üçün cəmi bir adamın yaşadığı adaya gizlicə getmişdi.

“İç ada” filminin ssenari müəllifi və rejissoru Rüfət Həsənov, quruluşçu operator Orxan Abbasov, quruluşçu rəssam Elturan Məmmədov, bəstəkarlar Katya Yonder və Fərhad Fərzəli, səs rejissoru Teymur Kərimov, rejissorun birinci köməkçisi Kamran Ağabalayev, icraçı prodüster Nadir Əliyevdir.

**Baş rollarda Orxan Ata, Vidadi Həsənov, Qurban İsmayılov, Rafiq Əzimov və Elvin Adıgözəl çəkilmişdir.**

**Feliks VİŞNEVSKİ**

# Nuru Paşanın xatirəsini kiçik köşkündə yad edən şair

**Tanınmış şair Akif Əhmədgilin kitab sərgisi keçirilib. Sərgi şairin yaşadığı binanın həyətində təşkil olunub.**

Sərginin 15 sentyabrda təşkil olunmasının səbəbi 102 il bundan öncə Qafqaz İslam Ordusu tərəfindən Bakının düşmənlərdən azad edilməsi münasibətiylə olub.

Sərgidə müəllif öz kitabxanasından müxtəlif illərdə nəşr olunan kitablarını təqdim edib. Bundan əlavə şair yalnız öz kitablarını deyil, digər müəlliflərin kitablarını da sərgi iştirakçılarına nümayiş etdirib.

Kitabı təqdim olunan müəlliflər arasında Qənirə Paşayeva, Aqil Abbas, Uluqbəy, Oljas Süleymanov( tərcüməsi Akif Əhmədgilə aiddir)Bəxtiyar Əliyev və Əkbər Bayramovun hazırladığı "Hüquq psixologiyası" və digrləri olub. Akif Əhmədgil bunun sərgidən çox etiraz və çağırış xarakterli olduğunu bildirib və onun bu sərgini təşkil etməkdə məqsədi həm də yaxınlıqdan keçən şagirdlərə Nuru Paşanı tanıtmaqdır. O, balaca köşkünün önündə qonaqlarını qəbul edib, samovarda dəmlənmiş çayına qonaq edib və onlarla sərgilədiyi kitablar,Nuru Paşanın Bakı üçün etdiklərindən danışıb.



Onun bu kiçik sərgisinə Elxan Zal Qaraxanlı, Yusif Nəğməkar və başqaları təşrif buyurub. Onlar da Akif Əhmədgilin kitab köşkünə kitablar hədiyyə ediblər.

**O bu köşükün adını şərti olaraq "Kırmızı kedi" qoyub.**

**Eminquey**

# 9 MAY QƏLƏBƏMİZ HAQQINDA

**Hörmətli oxucu, öncə müsahibəni yazan müəllifi Sizə təqdim edək. Yazıçı və jurnalist Vasili Mixayloviç Peskovun adı sovet məkanında təbiəti sevənlərə yaxşı tanışdır. O, uzun illər dövri mətbuatda təbiət haqqında, onun faunası və florası barədə çoxsaylı maraqlı oçerk və məqalələr çap etdirməklə oxucu məhəbbətini qazanıb. V.Peskov "Komsomolğskaə pravda" qəzetində "Okno v prirodu" rubrikası altında gedən yazıların daimi müəllifi olub. Vasili Mixayloviç bu yazıları ilə özünü meşədə yaşayan canlılar aləminin dərin bilicisi kimi göstərməyi bacarıb. O, duzlu qələmi ilə bərabət, həm də foto-obyektivin gözü ilə meşə sakinlərini müxtəlif rakurslarda qəzet və jurnal səhifələrində göstərirdi.**

Məlumat üçün bildirim ki, bu ilin əvvəllərində onun bütün yazıları və çəkdiyi fotoşəkillər toplum halında Moskva nəşriyyatında beş cildlik kitab halında çapdan çıxıb. Təbiəti sevənlər də həvəslə bu nəşrə abunə yazılırlar.

Bundan əlavə Vasili Peskov müharibə haqqında da illər ötəndən sonra bildiklərini və yadında saxladıqlarını "Voyna i lödi" adlı kitabda (1979) oxucularla bölüşüb. Müəllif bu kitabda mərd və qəhrəman insanların müharibə haqqında söylədikəri xatirələri qələmə alıb. Onların sırasında Sovet İttifaqı marşalları G.K.Jukov və A.M.Vasilevski, habelə yazıçı K.Simonov və cəbhə kəşfiyyatçıları da var. Həmin kitabda V.Peskov qısaca öz uşaqlıq illərindən də söhbət açır: "O vaxtın dəhşətli günlərində mən balaca uşaq idim. Müharibə demək olar, evimizin az qala kandarına qədər gəlib çatmışdı. Mən onun nəfəsini duymuşam. Kəndimizin küçələrində xəndəklər və blindajlar qazılmışdı, binaların divarlarında atəş nöqtələri yarılmışdı. Cəbhə xətti kəndimizdən iyirmi kilometr aralı keçirdi, qara tüstünü, axşamlar isə yanğınları görürdük. Kəndin səmasında gedən hava döyüşləri, atılan bombalar, qaçqın axını, yaralıları aparan arabalar bunlar hamnısı yeniyetmə yaşların yaddaşında dərin iz qoymuşdu. Buna baxmayaraq, o vaxtlar müharibə haqqında gözümlə gördüyümdən daha çox bilmək istəyirdim...

***Marşal Georgi Konstantinoviç Jukovla mən 1970-ci il aprelin 27-də axşam vaxtı onun bağ evində görüşdüm. Həmin ərəfədə o, "Komsomolğskaə pravda" qəzetinin oxucuları üçün müsahibə verməyə razılaşmışdı.***

İşə başlamazdan əvvəl adi söhbətimiz müxtəlif yeniliklər, hava və qarşıdakı bayramlar haqqında oldu. Həmin günü o, mənə Parisdə fransız dilində çapdan çıxmış özünün xatirələr kitabını göstərdi. Marşalın stolunun üstündə Kaluqa bilayətinin Uqodsko-Zavodskoy rayonunun kiçik qəzeti də var idi. Qəzetdə müharibə və Kaluqanın məşhur həmyerlisi barədə yazı dərc olunmuşdu. Hiss olunurdu ki, doğma yerdə çıxan qəzet və fransız nəşri marşalı eyni dərəcədə sevindirirdi. Sualların bir hissəsini biz Georgi Konstantinoviçə yazılı surətdə vermişdik, ikinci hissəsini o, canlı söhbət zamanı cavablandırdı.

**Sual. Georgi Konstantinoviç, faşizm ilə müharibə iyirmi beş ildir qurtarıb. İndiki cavanlara bizim qələbəmizi necə qiymətləndirərdiz?**

**Cavab.** Biz faşizm ilə müharibəyə başlayanda demək olar, bütün Avropa işğal olunmuşdu. Bütün millətlər son ümidlərini bizimlə bağlayırdılar, 1941-ci ildə dünya gözləyirdi, faşistlərin qarşısını ala biləcəyikmi, yoxsa onlar qalib gələcəklər. Ölkəmiz böyük sınaq qarşısında idi. Xalqlarımızın birliyi, sosial sistemimiz, kommunist əxlaqımız, iqtisadiyyatımızın gücü, bir sözlə yaşamaq haqqımız təhlükəli düşmən qarşısında davam gətirə biləcəkmi?

**Sual. Georgi Konstantinoviç, hər dəfə müharibəni xatırlayarkən, biz mütləq onun başlanmasına qayıdırıq. Siz Baş qərargahın rəisi olmusuz. Müharibənin başlanması barədə nə deyə bilərdiz? 22 iyunun səhərini necə görürdüz?**

**Cavab.** İyunun ortalarına kimi Almaniyanın bizimlə müharibəyə hazırlaşması barədə kifayət qədər məlumat toplanmışdı. Əlbəttə, bu məlumatların hamısı Stalinə çatdırılırdı. Lakin o, bu xəbərlərə həddən artıq ehtiyatla yanaşırdı.

Ordunun döyüş hazırlığına əmr yalnız 22 iyunda gecə vaxtı verildi. Baş qərargahın və müdafiə nazirliyinin işçilərinə iş yerlərində qalmaq əmri olmuşdu. Gecə saat 12-də Kiyev hərbi dairəsindən bildirdilər ki, bizim hissələrimizə bir alman əsgəri çayı üzüb keçərək gəlib və deyir: "Səhər saat 4-də alman qoşunları hücuma keçəcək..."

Saat 03:17 dəqiqədə Qaradəniz flotunun komandiri zəng vurub: "Dəniz tərəfdən çoxsaylı naməlum təyyarələr yaxınlaşır..."

Bu, artıq müharibənin başlanması deməkdir. Mən təcili Stalinə zəng vurub, vəziyyəti söylədim və xahiş etdim ki, döyüşə hazırlıq əmri versin. O, xeyli susandan sonra nəhayət dedi: "Kremlə gəlin..." Saat 4:30 dəqiqədə mən Timoşenko ilə birlikdə Stalinin kabinetinə daxil olduq. Siyasi büronun üzləri artıq orada oturmuşdular. Stalin, sifətinin rəngi dəyişilmiş halda, stol arxasında, qəlyan da qarşısında oturmuşdu.O dedi: "Almaniya səfirliyinə zəng vurmaq lazımdır..."

Səfirlikdən bildirdilər ki, səfir qraf fon Şulenberq təcili məlumat vermək üçün onu qəbul etməyi xahiş edir...

**Sual. Beləliklə müharibənin başlanması hiss olunurdu. Bəs, ölkənin müharibəyə hazırlaşmasının uzadılmasına səbəb nə idi?**

**Cavab.** Əsas səbəblərdən biri o idi ki, Stalin müharibənin başlanma vaxtını mümkün qədər uzatmaq, orduda yenidənqurma işlərini qurtarmaq və təchizatı gücləndirmək niyyətində idi. O istəmirdi ki, bizim görəcəyimiz işlər faşistlərin hücuma başlaması üçün bəhanə olsun. O vaxtlar mürəkkəb beynəlxalq vəziyyəti də nəzərə almaq lazımdır. Çox şey aydın deyildi. İngiltərə və Fransa ikibaşlı oyun aparırdı. Onlar var qüvvələri ilə Hitleri Şərqə itələyirdilər. Biz hərbiçilər də Stalini, təhlükəli düşmənlə qarşılaşacağımızı sona qədər inandıra bilmədik. Nəticədə çoxsaylı qurbanlar verildi.

**Sual. Ali baş komandanlıq hər dəfə sizi müharibənin ən gərgin və məsuliyyətli sahəsinə göndərirdi. Bununla əlaqədar siz hansı döyüşləri qeyd edə bilərsiz?**

**Cavab.** Leninqradın müdafiəsini, Moskva uğurunda döyüşü, Stalinqrad savaşını, Kursk qövsündə vuruşmanı, 1944-cü ildə Belarusiya əməliyyatını və əlbəttə ki, Berlinin alınmasını. Bu əməliyyatlardan bəzilərinə mən komandanlıq edirdim, digərlərinə isə Stavkanın göstərişi ilə cəbhə komandirləri ilə bərabər hazırlayırdıq.

**Sual. Bu döyüşlərdən hansı daha çox yadınızda qalıb?**

**Cavab.** Bu sualı mənə hər dəfə verirlər, mən də həmişə eyni cavabı deyirəm: Moskva uğurunda döyüşü. Bu, müharibənin ən məsuliyyətli məqamı idi. Mən cəbhəyə komandanlığı qəbul edəndə döyüşlər Moskva ətrafında gedirdi. Kremldən Perxuşkovda olan cəbhə qərargahına maşınla bir saata çatırdıq. İndi bu məsafənin nə qədər yaxın olmasını təsəvvür etmək çətin deyil. Həmin yerlərdə indi cavan moskvalılar qışda xizək sürür, payızda isə göbələk yığırlar...

Paytaxtın üzərində çox böyük təhlükə yaranmışdı. Bütün zavod və fabriklər, bəzi dövlət idarələri, diplomatik korpuslar Sibirə, Orta Asiyaya və Volqa çayının əks tərəfinə köçürülmüşdü. Şəhərdə partiya rəhbərliyi, Dövlət Müdafiə Komitəsi və Ali Baş qərargahın komandanlığı qalmışdı. Əlində silah və bel tutan, hətta dəzgah arxasında dayananlar da Moskvanın müdafiəsinə qalxmışdı. Bir gün, tarix yadımda deyil, Stalin cəbhə qərargahına zəng vurdu:

Siz inanırsızmı, Moskvanı saxlaya biləcəyik? Mən bunu ürək ağrısı ilə soruşuram. Kommunist kimi doğru deyin.

Mən cavab verdim:

Moskvanı saxlaya bilərik...

Həmən günlər Moskvanın müdafiəsində dayayan hər bir vətəndaşın üzərinə tarixi məsuliyyət düşürdü. Düşmən tərəfi güclü olduğu üçün şərqdən gələn rezervi gözləyirdik. Biz o zaman riskə getdik. Şərqdə də Yaponiya kimi təhlükəli qonşu var idi. Amma başqa çıxış yolu yox idi. Tanklara və döyüş sursatına ehtiyac var idi.

**Sual. Müharibənin nə qədər ağır olması məlumdur. Georgi Konstantinoviç, deyə bilərsinizmi Moskva uğrunda döyüşdə, cəbhə komandanı kimi, şəxsən sizin üçün həmin vəziyyət fiziki cəhətdən nə qədər çətin olub?**

**Cavab.** 1945-ci ildə Eyzenxauerə verdiyim cavabı eyni ilə sizə də deyəcəyəm. Moskva uğurunda döyüş hamı üçün həm əsgər, həm də komandirlər üçün bərabət səviyyədə ağır idi. 16 noyabrdan 8 dekabra kimi şiddətli döyüşlər gedən zaman mən sutkada iki saat yatırdım. Gücümü və iş qabiliyyətimi saxlamaq üçün qısa fasilələrlə fiziki hərəkətlər edirdim, tünd kofe içirdim, bəzən də 15-20 dəqiqə xizəklə qaçırdım. Döyüşdə vəziyyət dəyişən zaman elə bərk yatmışdım ki, məni oyada bilmirdilər. İki dəfə Stalinin səngindən sonra ona demişdilər: "Jukov yatıb, onu oyada bilmirik."



**Sual. Müharibənin dönüş anı Stalinqrad. Həmin uğurlu əməliyyatın yaranması necə oldu?**

**Cavab.** Paulyusun başçılıq etdiyi ordunun mühasirəyə almaq fikri, 42-ci ilin payızında yaranan mürəkkəb vəziyyətin nəticəsi idi. Stalinqrad şiddətli döyüşlərin məkanına çevrilmişdi. Hesab edirəm, onu yalnız Moskva uğurunda gedən döyüşlərlə müqayisə etmək olar. Mətinləşmiş şanlı ordumuz imkan yaratdı ki, rezervdə yığılan qoşun hissələrini Volqa sahilinə toplayandan sonra alman birləşmələrinə güclü zərbə vursun. Mən, Aleksandr Vasilevski ilə bərabər baş qərargahda əks hücum planını rəhbərin diqqətinə çatdırdıq və dedik ki, alman qoşunlarını Stalinqrad ətrafında mühasirəyə alaq.

Bu, strateji vəziyyəti bizim xeyirimizə dəyişə bilər. Stalin, bizi dinlədikdən sonra soruşdu: "Buna qüvvəmiz çatarmı?" Bir neçə gündən sonra aparılan hesablamalar göstərdi ki, bu, Stalinqrad yaxınlığında olacaq döyüşlərin ən yaxşı planıdır. Üç cəbhənin birləşmiş gücü və düşmən haqqında toplanmış kəşfiyyat materialları dərhal əməliyyatın başlamasına imkan verdi. Bütün işlərə ali və baş qərargah rəhbərlik edirdi.

**Sual. Stalinqrad döyüşləri zamanı siz orada iştirak edirdinizmi?**

**Cavab.** Alman qoşunları Volqaya yaxınlaşan zamanı məni ali baş komandanın müavini təyin etdilər və 29 avqust 1942-ci ildə Stalinqrad cəbhəsinin qərargahına getmək əmri verildi. Mən əks hücumun hazırlığında iştirak edirdim. Vəzifə borcumu yerinə yetirmək üçün həm Stalinqrad ətrafındakı qoşun hissələrimizin qərargahında, həm də Moskvada baş qərargahda olurdum.

**Sual. Stalinqrad döyüşlərindən sonra ordumuzda müsbət dəyişikliklər hiss olunurdumu?**

**Cavab.** Əlbəttə. Stalinqraddan sonra ordumuz ən güclü düşməni məhv edə biləcək bərkimiş qılınca bənzəyirdi. Kursk qövsündə gedən döyüşlər bunu çox yaxşı sübut etdi.

**Sual. Xahiş edirəm, "Kursk qövsü" bu iki sözün mənasını izah edəsiniz.**

**Cavab.** Bu sözlər 43-cü ilin yay aylarından başlayaraq adi söz kimi işlənirdi. Kursk rayonunda cəbhə stabilləşəndən sonra həmin ərazidə qövsşəkilli çıxıntı yarandı. Almanların da Stalinqrad yaxınlığında Volqaya tərəf buna bənzər bir çıxıntısı var idi. Bu ərazidə döyüş əlli gün davam etdi. Müharibələr tarixində bu, ən böyük döyüş sayılır. Düşmənin 1500 tankı məhv edildi. Bizim də itkilərimiz az olmadı. Ancaq biz qalib gəldik.

**Sual. Stalin haçansa sizinlə Hitlerin şəxsiyyəti barədə söhbət edibmi?**

**Cavab.** Yadımda bir söhbət qalıb. Bu, gecə vaxtı, 1945-ci il mayın 1-də olub. Mən Berlinin yaxınlığından Baş komandana zəng vurub dedim ki, Hitler intihar edib. Stalinin cavabı belə oldu:

O əclaf nəhayət ki, cəzasına çatdı. Hayıf, onu diri tuta bilmədik...

**Sual. Georgi Konstantinoviç, siz müharibədə partiyanın rəhbərliyini necə hiss edirdiniz?**

**Cavab:** Əgər müharibədə partiyanın istiqamətverici və gücləndirici rolu olmasa idi, biz qalib gələ bilməzdik və ölkənin taleyi başqa cürə olardı. Müharibənin ən çətin anlarında, ən məsuliyyətli qərarların verilməsi ilk növbədə kommunistlərin üzərinə düşürdü. Ən ağır günlərdə arxada görülən böyük təşkilatı işlərdən mən qürur hissi ilə danışa bilərəm. Fəxr edirəm ki, bu partiyanın sıralarında böyümüşəm.

**Sual. Hər bir müharibəni ağıl müharibəsi hesab etmək olar. Bu mənada siz alman qərargahlarında işləyən düşmənlər barədə nə deyə bilərsiniz? Əməliyyat hazırlayarkən konkret bir şəxsin hərbi düşüncə qabiliyyətini və xarakterini nəzərə alırdınızmı?**

**Cavab.** Faşistlərin bizim sərkərdələrin dəsti-xəttini nə dərəcədə bilməsi mənə məlum deyil. O ki qaldı bizə, müharibənin əvvəlində o barədə söhbət ola bilməzdi. Ancaq deməliyəm ki, biz çox güclü düşmənlə qarşılaşmışdıq. Müharibənin ikinci mərhələsində rəqiblə qarşıdurmada, hərbi bilik sahəsində bərabərlik yaranmışdı. Daha sonra sovet komandanlığı əlavə qüvvə və silah topladıqdan sonra strateji məsələlərin həllində alman hərbiçilərinə üstün gəldik. Konkret şəxslərə gəldikdə isə bilirdik, Manşteyn cəsarətli, qəti qərarlar verən, Model ehtiyatlı, sərhesab, Keytel isə avantüristdir.

**Sual. Georgi Konstantinoviç, hərbi xarakterli olmayan sual vermək istəyirəm. Sizcə müharibədə hansı hisslər insanlarda daha artıq özünü büruzə verirdi?**

**Cavab.** Müharibədə bütün insani hisslər açıq-aşkar özünü göstərirdi. Deməliyəm ki, Vətən sevgisi daha çox hiss olunurdu. Yadımdadı, bir kinofilmdə cavan əsgər belə deyir: "Bircə arzum var, qələbə gününü görə biləydim, sonra üç gün yaşayıb, ölməyə razılıq verərdim." Vətənə məhəbbət ən ali hissdir. Bunun dərin kökləri uzaq keçmişdən, xalq qəhrəmanlarından bizə miras qalıb.

**Sual. Xalqa müraciət olunan dövlət aktlarının hansını xüsusi olaraq qeyd edərdiz?**

**Cavab.** Üçünü deyə bilərəm. Fikrimcə, onlar müharibənin üç mərhələsinin simvoludur;1941-ci il iyulun 3-də Stalin nitqində ölkə üzərində təhlükə yarandığını xalqa həqiqəti söyləməsini, 1941-ci il noyabrın 7-də Moskvada keçirilən parad zamanı, cətin və uğursuz günlərə baxmayaraq, xalqda qələbəyə inam yaratmaq üçün demişdir: "biz qalib gələcəyik."

1943-cü il avqustin 5-də Oryol və Belqorod şəhərlərinin azad edilməsi münasibətilə Moskvada birinci salam atəşinin (salyutun) atılmasını.

Berlinə hələ uzun yol qalmasına baxmayaraq, artıq bu atəşlər də qəti qələbə olacağını özünü göstərirdi.

**Sual. Çoxlarına qəribə gəlir: necə ola bilər ki, əsgərlərimiz düşməni doğma torpaqdan qovub, onların ərazisinə daxil olduqdan sonra qəzəb və intiqam hisslərini cilovlaya biliblər?**

**Cavab.** Doğrusunu desəm: müharibə gedən zaman hamı kimi, mən də o cümlədən, istəyirdik vətənimizdə törətdikləri vəhşiliklərin əvəzini düşmənə artıqlaması ilə qaytaraq. Əlbəttə, buna haqqımız da çatırdı. Lakin biz qəzəbimizi cilovlamağı bacardıq. Bizim ideoloji əqidəmiz, beynəlmiləlçilik hissələrimiz buna yol vermədi. Orduda aparılan tərbiyə işi və xalqın mərhəmətli ürəyi bunun qarşısını aldı.

**Sual. Müttəfiqlərimizin köməyi barədə nə deyə bilərsiniz?**

**Cavab.** Onların köməyi şübhəsiz, böyük rol oynadı. Biz İngiltərə və Amerikadan barıt, benzin, müxtəlif markalı polad, qatar, təyyarə, avtomobil və ərzaq alırdıq. Bütün bunlar müharibənin ehtiyacını ödəyən çox cüzi hissəsi idi.

**(ardı 7-ci səhifədə)**

**Layihənin istiqaməti: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**№ 105 (2139) 17 sentyabr 2020-ci il**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# TÖRƏDİLƏN QƏTLİAMLAR QİSASA ÇAĞIRIR

**Bu gün Azərbaycanın ən böyük problemlərindən biri olan və bu problemin də hardan, kimlərdən qaynaqlandığı bəlli olduğu zaman kəsiyində dünya birliyi, dünyanın söz sahibi olan gücləri susmaqda davam edirlər. Onlar nəinki gerçəkliyə münasibət bildirir, hətta özlərini karlığa, korluğa vurmaqdan da çəkinmirlər. Amma bütün bu ədalətsizliyə baxmayaraq, Azərbaycan öz haqqını, öz hüquqlarını qorumaq, işğal olunmuş torpaqlarını geri qaytarmaq üçün bütün səviyyələrdə və müstəvilərdə qətiyyətli addımlar atmaqda davam edir. Məhz Azərbaycan iqtidarının, xüsusilə ölkə prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın apardıqları danışıqlar, gerçəkləşdirdikləri siyasət çətinliklərlə də olsa öz bəhrəsini verir. Təbii ki, bu böyük əzmkarlıq və iradə hesabına başa gəlir.**

Biz artıq tariximizin səhifələrinə qanla yazılmış faciələrin sırasını əzbərləmişik, yaddaşımıza köçürmüşük. Bu mənada ağrılarımız, itkilərimiz, axıdılan şəhid qanları, əsirlikdə, girovluqda məşəqqətlərə dözənlərin fəryadı bir an da olsa unudulmur. Bax, bu mənada tariximizin Xocalı faciəsindən öncə törədilmiş və hər kəsi sarsıtmış Qaradağlı qətliamı əslində Sovet rejminin ikiüzlü siyasətinin nəticəsi kimi də qeyd olunmalıdır. Çünki bu faciə törədiləndə, bu qətliam gerçəkləşdiriləndə sovet rejimi mövcud idi. Məhz faciənin törədilməsində də Sovetlər İttifaqına aid olan ordunun 366-ci motoatıcı alayı Xankəndində yerləşirdi. Törədilən faciədə bu alayın göstərdiyi şücaət birmənalı şəkildə tarixi həqiqətdir. Baş verən qanun soyqırımla bağlı faktlara diqqət çəkəndə onda ilk baxışdan adi rəqəmlər kimi görünən, amma ürək ağrıdan gerçəkliklər göz önündə canlanır. Məlum olur ki, törədilən qətliam 117 dinc sakinin və 200 evin, bir mədəniyyət evinin, 320 şagird yerlik məktəbin, 25 çarpayılıq xəstəxananın məhv edilməsilə nəticələnib. Məhz bu rəqəmlər Qaradağlının süqutunu göstərən bir reallıqdır. Əgər bir az da faktlara araşdırmaçı gözü ilə nəzər salsaq, onda görərik ki, 117 şəhidimizin arasında 10 qadın, 8 uşaq da var. Həmçinin bu qətliamda 140 uşaq yetim qalıb, 42 ailə başçısını itirib. Həmçinin 104 nəfər kənd sakini, 15 nəfər isə xüsusi müdafiə dəstəsinin üzvü əsir götürülüb. Faciə isə həm dünyanın, həm də Moskvanın gözü qarşısında törədilibdi.



***Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin vurğuladığı kimi, "Dağlıq Qarabağ həm tarixi ədalət, həm də beynəlxalq hüquq baxımından Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Qarabağ adının özü Azərbaycan sözüdür ". Bu gerçəkliyi ona görə diqqətə təqdim edirəm ki, hələ 1805-ci ildə Azərbaycanın Qarabağ xanlığı müstəqil ölkə kimi Rusiya imperiyasının tabeliyinə keçib. Həmin imzalanan sənəd "Kürəkçay" sazişi adlanır.***

Deməli, Qarabağın Azərbaycan xanlığı olduğunu Moskvada çox gözəl bilirlər. Amma həm xristian həmrəyliyi, həm də ermənilərdən bir alət kimi istifadə etmək istəyi zaman-zaman Rusiyanın Azərbaycana qarşı qərəzli mövqe tutmasının səbəblərindəndir. Çox təəssüf ki, bu gün Qarabağ probleminin çözümü ilə məşğul olan Minsk qrupunun həmsədrlərindən biri olan Rusiya, eləcə də onun xarici siyasət məsələlərinin başında duran Lavrov problemin çözümündən daha çox onun ömrünün uzadılmasına çalışırlar. Azərbaycan prezidentinin köməkçisi, xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev son zamanlarda Qarabağ probleminin çözümü ilə bağlı aparılan danışıqlara və reallığa münasibət bildirərkən vurğulayıb ki, "münaqişənin yeganə həlli yolu Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi, Ermənistan qoşunlarının həmin ərazilərdən çıxarılması və məcburi köçkünlərin doğma yurdlarına qaytarılmasından başlayaraq, mərhələli nizamlanmalıdır". Prezident köməkçisi onu da əlavə edib ki, "bu gün Ermənistanın siyasi rəhbərliyinin mafioz klanı bu gün də öz cinayətkar əməllərindən əl çəkmir. Onlar işğal olunmuş Dağlıq Qarabağda gümüş mədənlərinin istismarı və qiymətli metalların qanunsuz ixracını artıq ənənəyə çeviriblər".



Baş verən bütün olayların hamısı dünya ictimaiyyətinin, BMT-nin, eləcə də həmsədr ölkələrin gözləri qarşısında cərəyan edir. Üstəlik, Ermənistan tərəfinin atdığı bütün addımlar birbaşa beynəlxalq hüquqa, BMT-nin məlum qərarlarına, xüsusilə həmsədr ölkələrə sayğısızlıq, etinasızlıqdır. Məhz bu etinasızlığın, sayğısızlığın nəticəsidir ki, bu gün Ermənistan hakimiyyəti özünün atdığı addımlarla dünyaya meydan oxuyur. Yəni onların gerçəkləşdirdikləri qanunsuz məskunlaşdırma siyasəti birbaşa bütün beynəlxalq qanunları tapdamaqdır.

Hələ 1949-cu ildə qəbul olunmuş və BMT-nin üzv dövlətləri tərəfindən qəbul olunmuş məşhur Cenevrə Konvensiyasına görə, işğal olunmuş ərazilərdə məskunlaşdırma aparmaq cinayətdi. Amma Ermənistan bu cinayətkar addımı atmaqdan da çəkinmir. Görünür, Paşinyan və onun havadarları cəzasız qalacaqlarına böyük ümidlər bəsləyirlər. Ona görə də birbirinin ardınca cinayətlər törətməkdən, Azərbaycanın əzəli torpaqlarını "özününküləşdirməkdən" çəkinmirlər.

Məhz bu məqmda onu da vurğulamaq yerinə düşər ki, Azərbaycan ictimaiyyətinin, ölkənin Xarici İşlər Nazirliyinin, Dağlıq Qarabağın Azərbaycanlı İcmasının, bütövlükdə ölkəmizin ermənilərin apardığı məskunlaşma siyasətinə qarşı qəti etirazı artıq həmsədrlərin də, onların təmsil etdiyi dövlətlərin rəhbərlərinin də, BMT-nin baş katibinin də diqqətinə çatdırılıbdı. Bununla bağlı kəskin şəkildə mövqeyimizi bildirən ölkə prezidenti vurğulayıb ki, "bu bir daha onu göstərir ki, danışıqlar prosesində irəliləyişin olmaması Ermənistanın qeyri-konstruktiv fəaliyyətidir. Bu ölkə açıq-aşkar özünün işğalçı olduğunu nümayiş etdirir".

**Bəli, artıq zaman təkcə faciələrimizi xatırlamaq yox, həm də ondan nəticə çıxarıb torpaqlarımızın işğaldan azad edilməsi anının gəlib çatdığını bizə diqtə edir. 1992-ci ilin fevral ayının 17-si və 18-də törədilən Qaradağlı faciəsi, həmçinin fevralın 25-dən 26-na keçən gecə reallaşdırılan Xocalı qətliamı və digər ağrılı-acılı, unudulmaz anlar bizə səfərbər olmaq üçün həm çağırış edir, həm də haqq verir.**

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# "Yaşıdlarımı şair hesab etmirəm"

*Həmsöhbətimiz gənc şair Ələsgər Əhməddir.*

**-Hərbi xidmətdən yeni qayıtmısan. Necə keçdi? Hər insanın hərbidən öncəki və sonrakı düşüncələrində dəyişiklik yaranır. Sənin düşüncələrində, planlarında hansı fərqlilik yaratdı?**

- Hərbidən danışım da sənə. Aura çox fərqli idi. Nəyin necə olacağı haqqında heç bir fikrim yoxdu. Dillərini bilmədiyim qəbilənin axşam yeməyi idim sanki. Çəkmənin ayağı niyə yara etdiyini düşünürdüm. Bu hərbi addımlar hara kimidi? Bir də bunu deyim, yazı adamı üçün mövzu mərkəzidir. Hər rütbədə bir material parıldayır. O qədər gözlərim qamaşdı, yazdıqlarıma görə həbs etdilər. Dəyişiklik çox oldu. Ən çox biruzə verəni, təbiətimin sakitləşməsidir.

### *AYB-yə göstərdim ki, mən pişik deyiləm*

**-AYB-ni tənqid edə-edə min manat pulu götürməyə getdin. Müsabiqə ilə qalib olsaydın, bunu başa düşmək olardı. Halbuki, o min manatlar təyinatlı ayrılmalar idi.**

- Tənqid deyəndə ki, mənə AYB-yə tәriflər yağdırdığıma görə vermədilər o mükafatı. Ümumiyyətlə, mənim tərif etmək kimi xüsusiyyətim yoxdur. Sadəcə mən gənclər içində daha potensiallı, daha fərqli idim. Ki, hələ də eləyəm. Qalmaqal adamı olmamışam və onlardan dəstək də istəməmişəm. Günlərin bir günü yazıb, xəbər verdilər. Bir sözlə pulu mətnim qazandı. AYB-yə qaldıqda isə. Böyük qardaş Anar bizi izləyir, Rəşad Məcid də böyük zərbədən öncə, gəncləri tumarlayır. Di gəl, onlara göstərdim ki, mən pişik deyiləm. Başlamadan bitdi (gülür)

**-Bizim dövrə baxıram, dövr dedikdə sizlərdən 10 il qabaqki nəsli nəzərdə tuturam. Bu qədər eqo, saymazyanalıq bəlkə də yox idi. Sənin yaşıdların özündən başqasını şair hesab etmir.**

- Açığı mən də yaşıdlarımı şair hesab etmirəm (istisnalar var). Dövr deyəndə kimləri nəzərdə tutursan? AYB taxtında otura bilməyib, AYO kreslosuna göz dikənləri? Eqo və saymazyanalıq deyirsən. Hamıya o münasibət yoxdur. Amma Tolstoyu oxuyub, Kamal Abdullanı tərifləyən QanTurala, statusda rejimi pisləyib, məmurdan cib xərcliyi alan Kəramətə, Azərbaycan dilində yaza bildiyinə inanıb, rus dilinə keçmək istəyən Şəhriyara, o saytdan, bu saytdan qonanlara, xanımların inboksunu xatirə dəftərinə çevirənlərə başqa nə münasibət göstərmək olar? Hamısı bu qurumların işləridir. Kulisdə alqışlayıb, səhnəyə çıxartdılar. Qurum demişkən. Mənə görə AYB ilə AYO-nun



bir fərqi var, o da sonrakı hərf fərqi. Mahiyyətcə eyni adamlar nəzarət edir, eyni yerlərdən pullar yeyilir. Bir də rəhbər adları fərqlidir.

### *Ramiz Rövşən, Aqşin Yenisey plagiat şairdi*

**-Tez-tez yaşıdların arasından bir-iksinin plagiatlıqla, oğurluqla populyarlaşdırıldığını(özünün yox, başqaları tərəfdən) qeyd edirsən. O bir-iki adam kimdir ki, deyirsən, amma ad olmayanda bunların effekti də olmur.**

- Yaşıdlarım dəyəndə ki, yaş kateqoriyası yoxdur. Ramiz Rövşənin plagiatlarını yazsam, 'Nəfəs'i kəsilər. Aqşin Yeniseydən desəm, ədəbi mühitdə təkcə facebook profili qalacaq. İstəsən, Cemal Süreyadanın plagiatlarını deyim. Uşaqlar da heç də, hardan nə oxuyurlar uğursuz 'copypaste'. Hələ də təzəlikcə Elroman adlı bir facebook istifadəçisinin şeirini göndərdilər, istədim sənə, Aqşin Evrənə, Fərid Hüseynə yazım, üçünüz 'duet' şeiri yazmısınız? Adamı elə pis inandırıblar, həqiqəti deməyə qorxursan, intihar zad edər. Plagiatlardan danışsaq, gərək səhərəcən yazım.

**-Hamıdan və hər şeydən gileylənmək də insanı yeyib bitirir. Həm istedadını, həm də enerjisini.**

- Mən heç kimdən diqqət gözləmirəm. Mən oxucuma diqqət göstərməliyəm. Ki, hər şeiri yazanda romantika əvəzinə düşüncə, oyanış, üsyan, inqilab sərgiləyirəmsə, bu bəs edir. Məni fərqli edən, məni oxuyandır. Şairlərdən bəyəndiklərim var. Onlar içində sən də varsan. Yazıçılardan bəyənib, mütəmadi oxuduqlarım 'n' qədərdir. Ən çox oxuduğum Kənan Hacı və Nemət Mətndi. Ümumiyyətlə, yerli ədəbiyyatı yaxşı bilirəm. Dünya ədəbiyyatında da bir rahatlığım var.

**-İsanın atası olsaydı bu səninçün nəyi dəyişdirəcəkdi? Onsuz da Adəm və İsadan başqa peyğəmbərlərin atası var. Bu bəs eləmir?**

- Bu hansısa şeirimdəndir. Sadəcə maraqlı gəldi. Atası olsaydı, nə olardı. Digər peyğəmbərlər kimi, Adəmin də ata demək olduğunu düşünürəm.

**- Dostun Məlik Cahan da intihar etdi...**

- Etdi. Etməli idi mi, bilmirəm. Yəqin ki, indi daha rahatdır. Bu mövzuda artıq lalam e, bağışla.

**-Çingiz Abdullayevin son açıqlaması haqqında bir gənc kimi nə düşünürsən?**

- Çingiz Abdullayevə deməlidir ki, hamı rusca bilsə və onu ruscadan da oxusa, yenə mənasız olduğunu görəcək. Müəllimə sərf etməz. Təbii ki, mətni bilən adamdan söhbət gedir. Belə baxanda rus dilli biri, niyə Çingiz Abdullayev oxusun ki?

**-Bəs, Rövşən Abdullaoğlu, Varis, Elxan Elatlı? Kifayət qədər oxucuları var.**

- Məni niyə belə şeylər düşünməyə vadar edirsən ki? Üçünü bir yerə qoyanda normal bir bədii cümlə çıxmır ortalığa. Onlardan biri hansısa müsabiqədə qalib olanda, elə bilirəm başqa iştirakçı olmayıb. Məcburiyyətdən deyiblər, al sənin olsun.

Ölkənin kitab bazarı mənasız müəlliflərin satışı ilə məşğuldur. Arada İlbər, Celal kimiləri də gətirib, lap gülməli vəziyyətə gətirirlər. Adamların Türkiyədə tvitlərinə belə 'like' gəlmir.

**Söhbətləşdi:**
**Emin Piri**

# 9 MAY QƏLƏBƏMİZ HAQQINDA

**(əvvəli 6-cı səhifədə)**

**Sual. Siz əsgərlərimizdə hansı keyfiyyətləri daha yüksək qiymətləndirirsiz?**

**Cavab.** Mərdliyi, Vətənə olan sədaqəti.

**Sual. Georgi Konstantinoviç, ata sözü kimi gənclərimizə müraciət formasında hansı məsləhəti verərdiz?**

**Cavab.** Mən hesab edirəm, müharibənin qurbanları əsasən gənclər oldu. Nə qədər analar övladlarını itirdilər. Mən dəfələrlə komanda məntəqəsindən gənc əsgərlərin hücuma qalxmasını görmüşəm. Bu dəhşətli dəqiqələr idi, hava ölümsaçan qəlpələrlə dolu idi. Buna baxmayaraq, onlar ayağa qalxaraq hücuma gedirdilər: On doqquz-iyirmi yaşlılar, həyata təzəcə vəsiqə alanlar. Qarşıda isə onları faşist blindajından pulemyotlardan açılan güllələr gözləyirdi. İndiki gənc Vətən müdafiəçilərini necə görmək istərdim? Bilikli və dözümlü olmalarını. Ordumuz mürəkkəb texnika ilə təchiz olunub. Öyrənin, bilin ki, düşmənlərimiz heç vaxt yerlərində rahat oturmurlar. Bir də onu demək istəyirəm ki, əsgərlərimiz nə qədər bilikli olsalar da, mütləq sağlam bədən və güclü ruh da olmalıdır. İdmanla məşğul olmaq, üzməyi öyrənmək, uzun məsafələrə qaçmaq, yürüş və səfərlərdə iştirak etmək lazımdır. Unutmayın, güclülər qalib gəlirlər.

**Sual. Evinizdə müharibə illərindən xatirə kimi qalan hər hansı bir əşya varmı?**

**Cavab.** Çox şey var idi. Muzeyə vermişəm. Tarix muzeyinə üç şaşkanı və kürkümü bağışlamışam. Silahlı qüvvələr muzeyinə tapançamı hədiyyə etmişəm.

**Sual. Müharibə 1418 gün davam edib. Hansı günlər sizin üçün daha həyəcanlı, daha ağır, daha xoşbəxt olub?**

**Cavab.** Ən həyəcanlı gün deyərdim, müharibə başlanan ərəfədə, 21 iyun 1941-ci ildə olub.

Bir neçə ağır günümü 41-ci ilin noyabrında Moskva yaxınlığında keçirmişəm. Xoşbəxt günüm isə əlbəttə, o gün, Berlin yaxınlığındakı Karlsxorste şəhərində ordumuz və xalqımız adından faşist Almaniyasının təslim olunmasını qəbul edərkən olmuşdu.

**Sual. Georgi Konstantinoviç, indi iki kəlmə ilə müharibə illərindən xatirənizdə qalan daha aydın məqamı söyləyəydiniz.**

**Cavab.** Bu, əlbəttə, Berlinə hücumun başlanması idi... İkincisi, faşizmin paytaxtında qara tüstüyə bürünmüş reyxstaqın üzərində qırmızı bayrağımızın ucalmasını görəndə oldu. Mən sentimental adam deyiləm, ancaq həmin anı görəndə həyəcandan donub qalmışdım.

**Sual. "Xatirələr və düşüncələr" kitabı üzərində necə il işləmisiniz?**

**Cavab.** Təxminən 10 il.

**Sual. Kitabınız oxucularda böyük maraq doğurmuşdu. Bu barədə nə deyə bilərsiz?**

**Cavab.** Mən minlərlə dost məktubu almışam. Sıravi əsgərlərdən də, müharibə haqqında oxuyub bilənlərdən də aldığım məktublar çox yaxşı yazılıb.

Təəssüf ki, onların hamısına cavab yazmaq imkanım olmayıb. Xahiş edirəm, qəzetdə mənim adımdan onlara səmimi qəlbdən təşəkkürümü bildirəsiniz.

**Sual. İstirahət vaxtı nə ilə məşğul olmağı sevirsiniz?**

**Cavab.** Mən ov etməyin və balıq tutmağın həvəskarıyam.

**Sual. Georgi Konstantinoviç, elə bilirəm "Komsomolğskaə pravda" qəzetinin jurnalist yoldaşlarımın adından sizə dost hədiyyəsini təqdim etməyin vatı çatıb. Bu, plastinkalardır. Qutunun birində Moskva ətrafında uçan quşların səsləri yazılmış plastinkadır. Digərində müharibə illərinin mahnılarıdır. Bu mahnılardan ürəyinizə yatanı və daha çox sevdiyinizin adlarını deyə bilərsinizmi?**

**Cavab.** Elə bilirəm, mənim zövqüm bir çox insanların zövqündən fərqlənməz: "Qalx ayağa, böyük vətən", "Yollar", "Bülbüllər"... Bunlar əbədi yaşayan mahnılardır. Çünki onlarda xalqın böyük ürəyi təsvir olunub.

**Sual. Sizcə, hansı xalq qazanılan qələbə üçün daha çox qurban verib?**

**Cavab.** Müharibə bütün xalqlardan çoxlu qurban tələb etdi. Mən rus millətindən olduğuma görə xoşbəxtəm. Ötən müharibədə mən xalqımla birlikdə itirdiklərimin acısını və Qələbə sevincini bərabər bölüşmüşəm.

**Sual. Georgi Konstantinoviç, biz sizinlə Qələbə bayramı ərəfəsində danışırıq...**

**Cavab.** Vətənimiz üçün 9 may həmişə müqəddəs gün sayılacaq. Xalqımız hər zaman 1945-ci ilin may ayını xatirəsində yaşadacaq. Bizim insanlıq borcumuz həmin bahar günlərində bir-birimizi təbrik etməkdən əlavə, eyni zamanda müharibədə həlak olanları da unutmayaq.

Qələbəni bayram etməklə xalqımızın hansı keyfiyyətləri bahasına düşmənə qalib gəlməyimizi unutmamalıyıq. Dözüm, mərdlik, güclü iradə, vətənə məhəbbət. Odlu-alovlu müharibə illərində sınaqdan çıxmış bu keyfiyyətlər qoy daim qəlbimizdə və qanımızda qalsın. Belə də qələbə həmişə bizimlə olacaq.

**Söhbəti bəzi ixtisarla**
**tərcümə etdi: Həsən Tağıyev**

# Ələkbər Salahzadənin anım günü

**Bu yaxınlarda yeddi il öncə sentyabrda dünyasını dəyişən unudulmaz şair Ələkbər Salahzadənin anım günü keçirilmişdir. Təmtərağı, dəbdəbəni, hər cür süni səs-küyü əsla sevməyən ədibin xatirəsini elə qeyri-rəsmi surətdə ən yaxın dostları - Tofiq Nurəli, Kəramət Kəramət, Ağacəfər Həsənli, Maarif Soltan, Oqtay Əhmədov, Oqtay Abbas yad etmişlər.**

Onlar Hövsan qəbiristanlığında uyuyan şairin məzarına baş çəkmişlər. Ələkbərin bənzərsiz poeziyasından, bitkin xarakterindən söz açan A.Həsənli sonda şairə həsr etdiyi şeirini oxumuşdur. T.Nurəli, M.Soltan, O.Abbas sənətkarın daim təzə-tər yaradıcılığını önə çəkmiş, ədəbiyyatımızda həmişəyaşarlılıq qazandığını diqqətə çatdırmışlar. "Ulduz" və "Qobustan" dərgilərində Ələkbər müəllimlə çiyin-çiyinə çalışmış O.Əhmədov onun qayğıkeşliyindən və tələbkarlığından konkret misallar çəkmişdir. Tədbirin əsas təşəbbüskarı və təşkilatçısı Kəramət Kəramət (Şükürov) yenilikçi şairi unutmadığını, xatirəsinin daim ürəyində yaşadığını vurğulamışdır. Axırda Ələkbər Salahzadənin oğlu Fərid atasını yad etdiklərinə görə təşrif gətirən qələm adamlarına ailəsinin minnətdarlığını çatdırmışdır.



### Dünyanın ən gözəl qızları: Sevilən və seçilən türk gözəlləri



**Türkiyə mətbuatında tez-tez sevgili dəyişməsi ilə adı gündəmə düşən aktrisa Hande Erçel hətta 6 ayda 3 sevgili dəyişdirdiyi idda edildi . Hande Erçəldən ayrılan müğənni Murad Dalkılıçın adı yeni eşq münasibətində- voleybolçu Dərya Çayırgan ilə hallandıqdan sonra aktrisa tərəf müqabili Kərəm Bursinlə sevgili olduğu bildirildi. Amma Hande sevgililəri ilə deyil 2020-ci ilə başqa bir qabliyyəti ilə damğa vurdu**

Aktrisa fəaliyyətində maraqlı rolları ilə də tanınan H.Erçeli artıq nəinki bütün Türkiyə artıq bütün dünya tanımağa başlayıb.

Adalet.az xəbər verir ki, dünyanın ən məşhur jurnal-saytlarından biri olan "Top Beauty World" "2020-ci ilin ən gözəl qadını" başlığı ilə sorğu keçirib.

Türkiyəli aktrisa Hande Erçel ilk sırada yer alıb. Həmin siyahıda aktrisa Fahriyə Evcen isə 8-ci yerdə qərarlaşıb. Siyahıda Teylor Svift, Selena Qomez, Emma Uatson, Kristen Stüart, Priyanka Çopra kimi məşhur ulduzlar da var.

Qeyd edək ki. ötən illərdə dünyanın ən məşhur "Maxim" jurnalı "Türkiyənin ən gözəl qadınları" reytinqini açıqlamışdı. Reytinqə həmin vaxt müğənni Kendi liderlik etdr. Kendi sonar isə ilk onluğa Beren Saat, Bade İşçil, Gizem Karaca, Sesil Sinan, Fatoş Seğmen, Hadise, Eda Özerkan, Hilal Cebeci və Ebru Polat düşmüşdü.

**Əntiqə Rəşid**

# Məşhurların əyləncəsi: Kim, harda, necə...?









**Nəinki Azərbaycanın, eləcə də, dünya şou-biznesinin ən aktiv olan dönəmləri yay, yaz, payızdır. Bu fəsillərdə şou əhlinin ən böyük əyləncəsi isə açıq-saçıq geyimlərlə izləyicilərin görüşünə gəlməsidir.**

Adalet.az xəbər verir ki, məşhur rusiyalı model İrina Şeyk "İnstagram" hesabındakı son paylaşımı ilə diqqət mərkəzinə düşüb. Belə ki, model məşhur alt paltarı firması "İntimissimi"dən olan geyimi ilə şəkil paylaşıb. Həmin foto qısa vaxt ərzində yüz mindən çox bəyənmə qazanıb. Dəqiq məlumdur ki görüntüsündən razı qalan və zövq alan İrina yəqin ki, izləyiciləri də bu zövqdən məhrum etməməyə and içib.

Sonra isə səkkiz aylıq hamilə olan türkiyəli aktrisa Sinem Kobal yeni paylaşımı ilə gündəmə gəlib. Onun hovuzda çəkdirərək "Instagram" hesabından paylaşdığı fotosu qısa zamanda çox sayda bəyənmə qazanıb. Xatırladaq ki, Kobal 2016-cı ildə aktyor Kənan İmirzalıoğlu ilə ailə həyatı qurub. Amma hamilə görkəmi ilə izləyiciyə hansı mesajı göndərib , bax onu anlamadıq.

Məşhur britaniyalı müğənni və model Dua Lipa çimərlik geyimində yeni fotolarını paylaşıb vəo daizləyicini "xoşbəxy etmək" eşqinə düşüb. Lakin onun görüntüləri sosial şəbəkə istifadəçilərinin tənqidinə səbəb olub. Deməli, şəkillərdə 25 yaşlı müğənni fotoların birində narıncı rəngli çimərlik geyimində və sarı gün eynəyində poz verir. Digər fotoda isə Lipa rəfiqəsi ilə hovuzdadır. Qeyd edək ki, məşhur müğənni hazırda Kaliforniyada dostları ilə istirahətdədir."Əla zamandır", - deyə o, şəkillərə şərh yazıb. Lakin fotolar gözlənilən reaksiyanı doğurmayıb. Belə ki, sosial şəbəkə istifadəçiləri koronavirus pandemiyası dövründə təhlükəsizlik tədbirlərinin riayət olunmamasına görə, müğənnini qınayıblar, əleyhinə kifayət qədər "döşəyiblər":"Mən istərdim ki, insanlar evlərində qalsınlar", "Bəlkə pandemiya dövründə az gəzəsən?", "COVID-19!", "Uşaqlar, son altı ayda pandemiyanın episentrində olduğumuzu unutmusunuz", - kimi sözlərlə istifadəçilər məşhur müğənnini tənqid atəşinə tutublar.

Qalmaqallarla gündəmdə adı hallanan britaniyalı televiziya aparıcısı və aktrisa Amanda Holden evinin həyətində dovşanları üçün malikanə tikdirib. Ev Holdenin qızları üçün keçmiş uşaq oyun evinin əsasını təşkil edib.

Aktrisanın iki dovşanı üçün hazırladığı evdə iki mərtəbəli çarpayılı yataq otağı, mətbəx və qonaq otağı var. Heyvanlar üçün sahibinin üzü təsviri olan yastıq da hazırlanıb. Taxta malikanənin bir neçə pəncərəsi, giriş qapısı var və ərazinin qarşısı hasara alınıb. Malikanə altı min funt sterlinqə (13 251 AZN) başa gəlib. Holdenin social şəbəkə paylaşımındakı statusuna rəy yazan ingilisdilli izləyicilərinin nə yazdıqlarını anlamasamda, inanıramki, "dovşanın olaydım ay Holden" yazan insanlar mütləq oldu.

**Nəisəki dünya şou-biznesi dünya gündəmini vecinə almadan öz keyfindən qalmır.**

**Əntiqə Rəşid**

### "Əfsanədən əsər-əlamət yox" - Məleykənin fotosu tənqid edildi



**Sosial şəbəkədə, həmçinin, xəbər portallarında tez-tez bahalı həyat tərzi ilə gündəmə gələn Xalq artisti Məleykə Əsədova bu dəfə görünüşündəki dəyişikliklə müzakirələrə səbəb olub.**

Adalet.az xəbər verir ki, Əsədovanın "instagram" hesabında paylaşığı fotosu böyük marağa səbəb olub. Fotosunun altında "Xarici gözəllik gedəridir, daxili gözəlliyinizi qoruyun. O sizin beyninizi nurla bəzəyəcək. Əbədi gözəllik insanın üzündəki nurdur" cümlələrini yazan Xalq artistina yazılan rəylər isə birmənalı olmayıb. Belə ki, rəylər arasında "Əfsanədən əsər-əlamət yox", "Madonnanı keçibsiniz", "Gözəlsiniz" və digər maraqlı fikirlər yer alıb.

Həmin fotonu təqdim edirik.

**Rövşən Tahir**

### Məşhur aktyordan heyrətamiz açıqlama: "Sevgilimin əri Ronald..."



**Avqust ayının sonunda Hollivud ulduzu Bred Pittin yeni sevgilisinin olduğu ortaya çıxdı. Məlum oldu ki, aktyor təxminən bir ildir Polşa əsilli alman model 27 yaşlı Nikol Poturalski ilə görüşür. Nikolun ərdə olması isə sensasiya effekti yaratmışdı. "Daily Mail"in verdiyi məlumata görə, cazibədar model hələ də restorator Roland Meri ilə evlidir. "Onlar hələ də evlidirlər, lakin onların münasibətlərini "azad nikah" kimi qiymətləndirmək olar. Ronald bir neçə dəfə evli olub, onun beş uşağı var. O, bu məsələni çox rahat qarşılayır və heç bir qısqanclıq hissi keçirmir", - deyə insayder bildirir.**

Qeyd edək ki, Nikol və Roland səkkiz ildir evlidirlər, onların yeddi yaşlı oğulları var.

Daha böyük marağı isə Rolandın Berlində yerləşən "Borchardt" restoranında təqdim olunan menyunun fotosu doğurub. Belə ki, müəssisə öz müştərilərinə Bred Pitt və Ancelina Colinin istehsal etdiyi "Chateau Miraval Rose Provence" şərabını təklif edir.

**Əntiqə**

# "Musiqi sənətini ucuzlaşdırmışıq"

## Bayağı ifalara üsyan etdilər

**Son illər mədəniyyətimizdə bir ifadə dolaşır: "bayağı musiqilər". Bax hansılardır o bayağı ifalar? Dinləyicilərin zövqlərini korlayan kimlərdir? "Ədalət" qəzeti olaraq bu suallarla mədəniyyət xadimlərimizə müraciət etdik və onları sorğuladıq.**

**Xalq artisti Aygün Səmədzadə:** "Mən bu suala cavab verəcək şəxs deyiləm. Bayağı musiqi yazanlara sual verin ki, niyə yazıb zövqləri korlayırsınız? Bir-iki dəfə belə suallar verin ki, özlərini yığışdırsınlar. Biz onları tənqid etməklə guya nolur ki? İndi elə bir dövrdəyik ki, mən dediklərimi onlar başa düşməyəcək. İndi nəsə deyirsən, fikrini top, tüfənglə qarşılayırlar. Zövqləri odur axı. Ona görə də danışanda başa düşmək istəmirlər".

**Əməkdar incəsənət xadimi Nailə Mirməmmədli:** "Bu mövzuda bir neçə ildir ki, danışırıq. Lakin buna baxmayaraq heç bir xeyri olmur. Danışırıq, yerində də qalır. Heç kəs öz üzərinə götürmür, nəticə çıxarmır. Bilmirəm, nədən irəli gəlir? Sentyabrın 18-də 135 illiyini qeyd edəcəyimiz Üzeyir Hacıbəyovun bizim üçün qoyub getdiyi dünya boyda musiqi sənətini axır illər çox ucuzlaşdırmışıq. Elə bil qədrini bilmirik. Dərk etmirik ki, musiqinin qədrini bilmiriksə, biz özümüzün qədrini bilmirik. Bizim dilimiz, atributlarımızla yanaşı mədəniyyətimiz də qorunmalıdır. Hər bir azərbaycanlı bunu yerinə yetirməlidir. Musiqiçi oldu, olmadı, hər kəs mədəniyyətimizi qorumalıdır. Bu gün sosial şəbəkələrdə bayağı musiqiləri maraq xatirinə bəyənməklə biz onlara imkan yaradırıq ki, desinlər, bizi daha çox dinləyirlər, nəinki bizə qədər olan Azərbaycan musiqisini, Azərbaycan klassikasını. İnsanlar içərisində çox oluram, onlarla çox təmas qururam və təəccüblüdür ki, neçə min baxış sayı yığan həmin musiqiləri insanlar dinləmir. Bəs niyə onlar daha çox bəyənilir?"

**Əməkdar artist Gövhər Həsənzadə:** "Azərbaycan milli musiqilərinə, Azərbaycan dilinə, Azərbaycan poeziyasına, Azərbaycan milli dəyərlərinə söykənməyən yaradıcılığın hamısı bayağı, yad sayılır. Peşəkarcasına hazırlanmamış musiqilər bayağıdırlar. Söhbət bəstələnməkdən getmir, baxın, mən deyirəm ki, hazırlanmamış. Əfsuslar olsun ki, bizdə musiqiçilərdən, rəssamlardan və ya digər sahənin adamlarından fikir öyrənənən jurnlistlərin həmin sahədən xəbəri olmur. Sıradan bir jurnalist açıqlama alır və bəstəkarın, rəssamın dediyi



terminləri başa düşmür. Nəticədə öz bildiyi kimi yazır. Bu yazının özü də bayağıdır. Bircə onu deyə bilərəm ki, Azərbaycan qarmoniyasının, ladının üzərində bəstələnməyən melodiyalar bizim üçün yaddır. Peşəkarcasına hazırlanmayan musiqi materialı nəticədə çox keyfiyyətsiz və bayağı olur. Bu gün bizim Xalq artistlərimiz də var, sənətdə yeni addımlarını atan da. Düzdürmü? Onların repertuarında hansısa qeyri-peşəkar musiqi və yaxud da yaxşı hazırlanmamış bir musiqi varsa, onun mahnısını müzakirə etməliyik, filankəs bayağı musiqi oxudu, bunu yox. Filankəslə nə işimiz var? Biz ifaçıların şəxsiyyətini müzakirəyə çıxarırıq. Demirik ki, bayağı musiqilər niyə efirləri zəbt edib? Niyə efirə çıxdı? Bu gün peşəkar bəstəkarlara bilirsiniz niyə müraciət yoxdur? Əvvəllər televiziya kanallarında baxırdılar ki, bu kimin əsəridir? Sonra onu efirə buraxırdılar. İndi buna baxan yoxdur. Günah nə müğənnidədir, nə bəstəkarda, nə də musiqiçidə, günah efirlərdədir. Neçə ildir, deyirəm ki, kanallardır günahkar. Bugünkü gənclərin zövqlərinin pozulması təbliğatdan asılıdır".

**Rövşən Tahir**

### Dünya futbolunun koronavirusa görə itkisi açıqlandı



**Dünya futbolunun koronavirus pandemiyasına görə maliyyə itkiləri açıqlanıb.**

Qol.az xəbər verir ki, bu barədə COVID-19 iqtisadi fəsadlarının aradan qaldırılması üzrə FIFA Komitəsinin rəhbəri Olli Ren bildirib.

O, 2020-ci ildə maliyyə itkilərinin 14 milyard ABŞ dolları təşkil edəcəyini deyib. Bu isə ümumi klub futbol bazarının üçdə biri deməkdir.

Ren pandemiyanın azalacağı təqdirdə məbləğin dəyişə biləcəyini də qeyd edib.

FIFA rəsmisi Afrika və Asiyada futbolun inkişafı üşün təhlükənin olduğunu da deyib. Onun sözlərinə görə, hadisələrin ən pis inkişafı istisna edilmir.

### "Real"ın futbolçusu "Tottenhem"də




**"Tottenhem" "Real"ın müdafiəçisi Serxio Reqilonu transfer edir.**

Qol.az xəbər verir ki, Madrid təmsilçisi bu keçid üçün London klubuna 30 milyon avro ödəyəcək. "Real"ın ispaniyalı futbolçunu 45 milyon avroya geri qaytarmaq hüququna malik olduğu bildirilib.

Qeyd edək ki, 23 yaşlı cinah müdafiəçisi ötən mövsüm icarə əsasında "Sevilya"da çıxış edib.

Quba rayon Aqrar İslahat Komissiyasının 24 fevral 2000-ci il tarixli 02 saylı qərarı ilə Quba rayonu İqriq kənd sakini Əmrahova Abiyət Nəzir qızının adına verilmiş Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair (JN-018F Kod 30304038) Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Quba rayonu Aqrar İslahat Komissiyasının 01 noyabr 1997-ci il tarixli 14 saylı qərarı ilə Quba rayonu Rustov kənd sakini Əliyeva Xəccə Ruzman qızının adına verilmiş Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair (JN-053F Kod 30321018) Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Quba rayonu Aqrar İslahat Komissiyasının 18.11.98 tarixli 15 saylı qərarı ilə qəbul edilən DNK-nun 25.04.06 tarixli 4-ə-381 saylı alqı-satqı müqaviləsi ilə Quba rayonu Qəçrəş kənd sakini Ələsgərov Şirbala Məmmədağa oğlunun adına verilmiş (JN-665F Kod 30317018) Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Respublikası Əmlak Məsələri Dövlət Komitəsi Yanında Daşınmaz Əmlakın Reyestr Xidməti, reyestr qeydiyyat nömrəsi 902012000631, Quliyev Vahid Vəlyəddin oğlunun adına verilmiş, Mingəçevir şəhəri, Natəvan küçəsi 1 a ünvanda yerləşən 0, 0050 ha 2017002772 saylı, 102537 seriyalı torpağa dair Çıxarış itdiyi üçün etibarsız sayılır.

***

Astara rayonu Şahağacı kənd sakini Quliyev Ədalət Qəni oğluna 3 Mart 1998-ci il tarixli 12 saylı qərarı ilə verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şahadətnamə (JN-026A kod 80112018) itdiyi üçün etibarsız sayılsın.

***

Astara rayonu Kakalos kənd sakini Vəliyeva (Qulamova) Zenfira Paşa qızına 24 dekabr 1997-ci il tarixli 92 saylı qərara əsasən torpağın mülkiyyətə verilməsinə dair Şahadətnamə (JN-10F kod 80104018) itdiyi üçün etibarsız sayılsın.

***

Astara rayonu Suparibağ kənd sakini Məmmədov Xudaverdi Gülverdi oğluna 23 aprel 1999-cu il tarixli 11 saylı qərar ilə verilmiş torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı (JN-0057 kod 80109018) itdiyi üçün etibarsız sayılsın.

***

Lənkəran rayonu Şağlaser kənd sakini Talıbova Xalidə Qurbanəli qızına 16 may 1998-ci il tarixli 9 saylı qərar ilə verilmiş torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı (JN-638 kod 80224018) itdiyi üçün etibarsız sayılsın.

***

Astara rayonu Rüdəkənar kənd sakini Sadıxov Adil Oruc oğluna 23 aprel 1999-cu il tarixli 11 saylı qərar ilə verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şahadətnamə (JN-138A kod 80109028) itdiyi üçün etibarsız sayılsın.

***

Lənkəran rayonu Kərmətük qəsəbə sakini Fərzullayev Fərzi Əzizağa oğluna 27 mart 1998-ci il tarixli 5 saylı qərara əsasən torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı (JN-0075 kod 30206016) itdiyi üçün etibarsız sayılsın.

***

Astara rayonu Ərçivan kənd sakini Əhmədova Gülnaz Mirzağa qızına 2 iyul 1999-cu il tarixli 18 saylı qərar ilə verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şahadətnamə (JN-998A kod 80100018) itdiyi üçün etibarsız sayılsın.

***

Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dairAğcabədi rayon Muğanlı kənd sakini Əliyev Adil İbiş oğlunun adına 15 iyul 2005-ci il tarixdə verilmiş JN175A, kod 60811018 saylı həyətyanı sahənin Şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

***

Kərimova Rəqumə İsmixan qızına məxsus Kürdəmir rayon Xırdapay kəndində yerləşən 18.01.1999-cu il tarixli qərarla verilmiş JN:066, kod 90616018 saylı torpağın mülkiyyətə aid Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Cəfərov Rasim Cənnət oğluna məxsus Kürdəmir rayon, Köhünlü kəndində yerləşən 1998-ci il tarixli 06 saylı qərarla verilmiş JN:0066, kod 90612018 olan torpağın mülkiyyətinə aid Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

# Dələduz əri tərəfindən aldadılan, müflisləşən 47 yaşlı Songül Karlının dəyişimi









**Yadınızdadırsa , Bir neçə il əvvəl Türkiyənin Azərbaycanda da tanınmış və sevilən müğənnisi, həmçinin teleaparıcısı Songül Karlı haqqında müxtəlif xəbərlər yayılmışdı. Müğənninin öz adını daşıyan verilişi ("Songül Karlı ilə yenidən") 512 min lirəlik (təxminən 180 min manat) borc səbəbindən bağlandı.**

İddiaya görə, S.Karlı həyat yoldaşına aldığı "Porsche" markalı avtomobilinə görə, 512 min lirə borca düşdü. İfaçı verilişin təşkilatçısından həmin pulu ödəmək üçün ona kömək olmasını istədi. Daha əvvəl də Songül və ərinin borclarına görə çətinlik yaşayan prodüser Cəbrayıl Mungan bu mövzuda ona yardım edə bilməyəcəyini dedi. S.Karlı da bu səbəbdən verilişi aparmayacağını söylədi. Elə buna görə də, həftə içi hər gün yayımlanan proqram dayandırıldı. Hər zaman müğənni Songül Karlı ideal bədən quruluşu ilə hər kəsi heyran etdi.Ötən tətillər zamanı müğənni Bodrumda yaxtada dincələrkən görüntüləndi. Mavi bikinidə olan bir uşaq anası ideal bədən quruluşu ilə diqqət çəkdi. Bədən qurluşundan yarıyan müğənni ər sarıdan yarımadı" deyə bilərik. 1973-cü ildə 15 sentyabr doğumlu, Əslən Tokatlı Songül Karlı 2008-ci ildə boşandığı Baykal Gümüşdən bir övladı vardı. O, 2012-ci ildə aparıcılığını etdiyi evləndirmə programı "Su Gibi" ekranlarında Metin Yüncü ile canlı yayında evləndi.5 illik ailəlikdən sonra onunlada boşandı və insanları təəccübləndirəcək bir açıqlama etdi:" Çox fədakar qadınam. Hər zaman başqalarını özümdən daha çox düşünürəm. Həyat yoldaşıma hamilə olduğumu deyəndə sevinmədiyinə görə uşağımı abort elətdirdim. Mübahisə elədik, evi tərk etdi. İki ay nə evə gəldi, nə də zəng etdi. Mən də boşandım".

Məşhur müğənni həyat yoldaşının fırıldaqçı olmasına da münasibət bildirib: "Milyon dəyərində, 17 hektar torpaq sahəm yoxa çıxdı. Amma Metin ailə üzvlərinin canına and içdi ki, onun torpaqdan xəbəri yoxdur. Pulu kimə, hara xərclədiyini bilmədim".

Daha sonra açıqlamasına bunları da əlavə etdi: "Mənim 20 milyon lirəmi ələ keçirdi. Toyumuzda bəylik kostyumuna qədər hər şeyin pulunu özüm vermişdim. Üstəlik, məni döyürdü. Mən də boş dayanmırdım, məni döyəndə onu vururdum. İndiyə kimi heç bir kişi üçün ağlamamışam. Ancaq mən də sevdiyim üçün kədərlənməyi, səhərə kimi ağlamağı arzulayıram".

Adalet.az xəbər verir ki, bu gün 47 yaşını qeyd etməyi planlaşdıram məşhur müğənni hər zamankı kimi bədən qurluşunun gözəlliyinə diqqət yetirməkdə davam edir. Müxtəlif dieta və idman hərəkətlərindən istifadə edərək heç vaxt kilolu görnüşdə olmayan müğənni bu halı ilə gənc qızlara örnək oldu.

**Qeyd edək ki, o 1973-cü il sentyabr ayının 15-də Tokat vilayətində anadan olub.**

**Əntiqə**


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 22
Çapa imzalanmışdır: 16.09.2020